www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 avqust 2016-cı il Bazar ertəsi № 184 (6505) Qiyməti 60 qəpik

**Xəbər**

**Evli adamın qaçırdığı nişanlı qız tapıldı və... ailəsinə verilmədi**

yazısı səh.12-də

**Gündəm**

**Rusiya Ermənistanla vahid ordunu kimə qarşı yaradır?**



"Bakı və Ankara Moskvanı bundan çəkindirməyə çalışmalıdır"; hərbi ekspertdən Qarabağ xəbərdarlığı gəldi...

yazısı səh.9-da

**"Mahmudovçu"ların həyatını alt-üst etdiyi biznesmen danışdı**

yazısı səh.3-də

**Sabiq həmsədr Qarabağa dair qapalı danışıqların detallarını açdı**

yazısı səh.11-də

**Referendumla bağlı qeydə alınan təşviqat qruplarının sayı üçə çatdı**

yazısı səh.3-də

**Məmur ərini öldürən qadının cinayət işində müəmmalar**

yazısı səh.13-də

**Putin öz ətrafını təmizləyir - hədəfdə Medvedyevdir?**

yazısı səh.9-da

**"Günəşli" yatağında itkin düşən neftçilər iyundan ölmüş sayılır, amma...**

yazısı səh.12-də

**Rio-2016-da Azərbaycana ilk "qızıl"ı taekvandoçumuz qazandırdı**

yazısı səh.14-də

*Aşıq Namiq:*

**"Mən də bu sənətin "vor zakon"uyam**

yazısı səh.10-da

**İŞİD-dən növbəti iyrənclik: Türkiyədəki son qanlı terror aktını uşaq törədib**

yazısı səh.2-də

**Abituriyent ali məktəbə qəbul olmursa, repetitor pulu qaytarmalıdırmı? - Hüquqşünas rəyi**

yazısı səh.12-də

## 15 iyul "darbe"sinin müttəfiqlərə qurduğu tənlik çözüm ərəfəsində

# TÜRKİYƏ-ABŞ MÜNASİBƏTLƏRİNDƏ KRİTİK HƏFTƏ - AZƏRBAYCAN ÜÇÜN DƏ HƏYƏCANLI DÖNƏM

Bu gün prezident Barak Obamanın ədliyyə generalları "Gülən işi" ilə bağlı ilk dəfə Ankaraya gəlirlər; səfərdən dərhal sonra vitse-prezident Bayden də Türkiyədə olacaq; Pensilvaniyadakı şəxslə bağlı verilən qərar Vaşinqton-Bakı əlaqələrinə də təsirsiz ötüşməyəcək...




yazısı səh.8-də

## "Lənkəranski"nin qətlində yeni şok versiya - gürcülər kürdlərlə birlikdə...

"Şakro Molodoy"un həbsindən sonra yeni "oğru" Laşa Şuşanaşviliyə ən böyük əngəl azərbaycanlı "qanuni oğru" olub; Rusiya paytaxtında qanlı toqquşmalar gözlənilir...

yazısı səh.5-də



**AXCP-də gülənçi həbsləri: Əli Kərimlinin köməkçisi nədə ittiham olunur?**

yazısı səh.6-da



*Hacı Əbdül:*

**"Vəhhabilər qılıncla baş kəsir, nurçular pambıqla"**

yazısı səh.7-də



**Türkiyə Bəşər Əsədi İpdən alır? - Səbəb**

yazısı səh.4-də

**22 avqust 2016**

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016

# Ərdoğan: "Qaziantepdə partlayışı 12-14 yaşlı uşaq törədib"



## Prezident Olimpiya çempionu olan idmançımızı təbrik edib

**Azərbaycan prezidenti İlham Əliyev avqustun 21-də Rio-de-Janeyro Olimpiadasında qızıl medala layiq görülmüş taekvandoçumuz Radik İsayevə telefonla zəng edib. "Report" xəbər verir ki, bu barədə prezidentin mətbuat xidmətinin məlumatında bildirilir.**

Prezident İlham Əliyev bildirib ki, Radik İsayevin bu inamlı qələbəsi bütün Azərbaycan xalqını sevindirib. Dövlət başçısı qeyd edib ki, Radik İsayev əvvəllər də sübut edib ki, o taekvando üzrə öz çəki dərəcəsində dünyada ən güclü idmançıdır. Belə ki, o həm Dünya çempionatında qələbə qazanıb, indi də Olimpiya çempionu adına layiq görülüb. İlham Əliyev idmançımızı səmimi qəlbdən təbrik edib, ona yeni-yeni uğurlar və qələbələr arzu edib.

Dövlət başçısı onun təbriklərini idmançının məşqçisinə də çatdırmağı xahiş edib. Radik İsayev təbriklərə görə dərin təşəkkürünü bildirib. Qeyd edib ki, bu qələbəni Azərbaycanda prezident İlham Əliyevin idmana göstərdiyi böyük diqqət və qayğı nəticəsində əldə etmək mümkün olub.

## Hərarət yenidən 42 dərəcəyə yüksələcək

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, şimal küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturunun gecə 22-26 dərəcə isti, gündüz 35-39 dərəcə, bəzi yerlərdə 41dərəcə isti, Bakıda gecə 23-25 dərəcə isti, gündüz 37-39 dərəcə isti olacağı gözlənilir. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 55-65 faiz, gündüz 20-30 faiz təşkil edəcək. Abşeron çimərliklərində dəniz suyunun temperaturunun Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 25-26 dərəcə, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27 dərəcə, Türkan, Hövsan, Sahil, Şıxda 28-29 dərəcə isti olacağı gözlənilir.

Avqustun 22-də Azərbaycanın rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25 dərəcə isti, gündüz 35-40 dərəcə isti, bəzi yerlərdə 42 dərəcə, dağlarda gecə 15-20 dərəcə isti, gündüz 28-33 dərəcə isti olacağı gözlənilir.

## Türkiyə xaricdəki 300 diplomatını ölkəyə çağırdı

**Türkiyənin xarici ölkələrdəki diplomatik missiyalarında çalışan 300 diplomat ölkəyə çağırılıb. APA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, diplomatlar Ankara Baş Prokurorluğunda Fətullahçı Terror Təşkilatı (FETÖ) ilə əlaqədar aparılan istintaq çərçivəsində ölkəyə çağırılıb.**

Prokurorluq FETÖ-nün təhlükəsizlik, məhkəmə, siyasət, təhsil və iş dünyası ilə bərabər diplomatik sahədə təşkilatlanmasını da araşdırır. Türkiyə Xarici İşlər Nazirliyi FETÖ ilə əlaqəsi olunan diplomatların vəzifələrindən uzaqlaşdırılacağını, FETÖ ilə əlaqəsi olmayanların isə vəzifələrinin icrası üçün diplomatik missiyalara geri qaytarılacağını açıqlayıb.

## Papa Türkiyə üçün dua etdi

**Roma Papası Fransisk Türkiyənin Qaziantep şəhərində törədilən terrorda ölən və yaralananlar üçün dua edib. Axar.az xəbər verir ki, Əziz Petrus Meydanına toplaşan minlərlə insana səslənən Papa Türkiyədəki terrorla bağlı bunları deyib: "Əziz qardaşlarım, Türkiyədə baş vermiş dəhşətli terror hücumundan xəbərim var. Onlar üçün dua edək. Ölən və yaralananlar üçün dua edək. Hər kəsin sülh içində yaşamasını diləyək".**

Papa çıxışından sonra bir müddət səssiz dayanaraq dua edib.


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Qaziantep şəhərində toy mərasimində partlayışın 12-14 yaşlı canlı bomba tərəfindən törədildiyini bildirib.**

APA-nın "Hürriyet" qəzetinə istinadən verdiyi məlumata görə, R. T. Ərdoğan deyib ki, toy mərasimində 12-14 yaşlı uşaq özünü partladıb, ya da uşağın üzərindəki partlayıcı qurğu kənardan işə salınıb.

Türkiyə prezidenti partlayış nəticəsində ölənlərin sayının 51 nəfərə çatdığını, 17-si ağır olmaqla, 69 yaralının müalicəsinin davam etdirildiyini qeyd edib. R. T. Ərdoğan hüquq-mühafizə orqanlarının ilkin versiyasının partlayışın İŞİD terror təşkilatı tərəfindən törədildiyi olduğunu da nəzərə çatdırıb.





## Gürcü nazir Azərbaycana təşəkkür etdi

**"Azərbaycan dövlətinə taxıl biçini zamanı Gürcüstana kömək əli uzatdığı üçün təşəkkürümü bildirirəm". Bunu APA-nın Gürcüstan bürosuna açıqlamasında Gürcüstanın kənd təsərrüfatı naziri Otar Danelia bildirib.**

Danelia bu il taxıl biçini zamanı Gürcüstanın əlavə texnikaya ehtiyacı olduğunu qeyd edib: "Mən azərbaycanlı həmkarım Heydər Əsədovla danışdıqdan iki gün sonra bizim problemimiz həll olundu. Bizim kənd təsərrüfatı sahəsində münasibətlərimizdə böyük irəliləyiş var. Son bir neçə ildə Azərbaycanda kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlərdən bəhrələnərək, Gürcüstanda da kənd təsərrüfatını inkişaf etdirməyə çalışırıq".

Nazir iki ölkə arasında ixrac və idxalın artırılması üçün geniş imkanlar olduğunu vurğulayıb: "Azərbaycanda bu sahədə müsbət inkişaf var və biz bu böyük təcrübədən yararlanmağa çalışacağıq. Onu da qeyd edim ki, son 10 ildə Gürcüstanda kənd təsərrüfatı prioritet sayılmırdı və 2013-cü ildən sonra biz yeni hakimiyyətin dəstəyi ilə kənd təsərrüfatı sahəsini inkişaf etdirməyə başladıq. Bundan sonra ölkə əhalisinin kənd təsərrüfatına marağı artdı və biz digər ölkələrlə olduğu kimi, Azərbaycanın təcrübəsindən də istifadə edərək bir-birimizə dəstək verdik. Biz Azərbaycanla strateji münasibətlərimizi daha da inkişaf etdiririk".

Gürcü nazir Gürcüstanda soydaşlarımızın kompakt yaşadığı bölgələrdə kənd təsərrüfatının güclü inkişaf etdiyini də bildirib.



## Müğənni Lənkəranskiyə görə konsertini təxirə saldı

**Gənc müğənni Mirkamil Kamilov avqustun 20-də keçirməli olduğu konsertini təxirə salıb. Buna səbəb isə bu günlərdə məşhur azərbaycanlı avtoritet Rövşən Lənkəranskinin Türkiyədə öldürülməsi olub.**

Musavat.com bildirir ki, bu barədə müğənni öz "İnstaqram" səhifəsində məlumat yayıb: "Avqustun 20-də Nabranda keçiriləcək solo konsertimizi təxirə saldıq. İnanıram ki, məni anlayışla qarşılayacaqsız. Səbəbinə gəldikdə isə, bu son günlərdə duyduğumuz acı bir xəbərə görə oldu. Bilet əldə edən bütün insanlarda üzr istəyirəm".

Müğənninin bu addımı sosial şəbəkə izləyiciləri tərəfindən tənqidə edilib, onu dəstəkləyən şərhlər yazılıb.

Xatırladaq ki, qeyd olunan tarixdə müğənni Mirkamil Kamilovun "Həyat bir nağıl" adlı konserti nəzərdə tutulmuşdu. Təxirə salınan konsertin hansı vaxta təyin olunacağı barədə isə müğənni məlumat bildirməyib.

Bundan əvvəl isə müğənni R.Canıyev haqda yazıb: "Böyük və dəyərli qardaşım, hər zaman cismində, qəlbində, gözlərində və ruhunda haqq olan qardaşım. Allah səni haqq dərgahından biz qardaşlarına dayaq göndərmişdi, saysız dərəcədə haqqı tapdanan insanlara kömək əli uzatdın, dayaq durdun, böyük qardaşlıq etdin. Allah bu səni əməllərinə görə sənə öz haqq və rəhmət dərgahında ən üstün mərtəbələri layiq görər inşallah..."

**Xalidə GƏRAY**




## İki rayonun içməli su mənbəyi olan Girdiman çayının suyunun dadı dəyişib

**İsmayıllı və Ağsu rayonlarında əhalinin içməli və suvarma suyu kimi istifadə etdiyi Girdiman çayının suyunda təhlükəli vəziyyət yaranıb. APA-nın yerli bürosunun xəbərinə görə, artıq 10 gündür ki, Girdiman çayının suyu naməlum səbəbdən yaşıl rəngə boyanıb.**

Çaya çirkli maddələrin axıdılması səbəbindən suyun rəngi və dadı dəyişib, sudan qeyri-adi qoxu gəlir. Hətta çayın içərisindəki daşlar da yaşıl rəngə boyanıb. Bu təhlükəli vəziyyət çayın suyundan istifadə edən İsmayıllının Gəraybəyli, Xəlilli, Eyyubbəyli və Ağsunun Külüllü, Pirhəsənli, Padar, Nəmirli, Gursulu, Kələğayli, Sarvan, Qasımlı, Bəyimli, Mustafalı kəndlərinin və Ağsu şəhərinin sakinlərinin narahatlığına səbəb olub.

İsmayıllı rayon İcra Hakimiyyətinin Gəraybəyli kəndi üzrə icra nümayəndəsi Rüstəm Babayev APA ttp://apa.az/-nın yerli bürosuna bildirib ki, yüz illərdir ki, Babadağdan axıb gələn və bulaq sularından yaranan Girdiman çayının duru suyunun son günlər yaşıl rəngə boyanması hamını ciddi narahat edir. "On gün əvvəl Girdiman çayı ilə köpüklü su gəlib, sonra isə yaşıl rəngdə çirkli su axmağa başlayıb. Qeyri-adi iyə malik olan bu çirkli su hələ də gəlməkdə davam edir. Rayon ərazisində zavod və fabrik olmadığı üçün ehtimal olunur ki, İsmayıllı rayonunun şimalındakı meşəlik ərazilərdə, Girdiman çayının kənarında fəaliyyət göstərən istirahət mərkəzləri tərəfindən qanunsuz olaraq bu çaya çamaşırxana və kanalizasiya tullantıları axıdılır. Zəhərli toksik maddələrin axıdıldığı Girdiman çayının suyu artıq insanların sağlamlığına da ciddi ziyan vurur. Son günlər Gəraybəyli kəndində 15-ə yaxın adam mədə-bağırsağında yaranan problemlə, işləmə-qusma əlamətləri və dəri xəstəlikləri ilə bağlı həkimə müraciət edib. Çayın suyu qəflətən çirklənəndən sonra insanların səhhətində problemlər yaranıb. Suyun tərkibinin yoxlanılması və bunun insan sağlamlığına hansı təsirinin olub-olmadığını müəyyən etmək üçün aidiyyati qurumlara müraciət etmişik. Əvvəllər bu çayda belə bir hal baş verməyib. Hazırda bu sudan məişətdə istifadə etmək mümkün deyil".

Xəlilli kənd sakini Vaqif Məmmədov və Gəraybəyli kənd sakini Məzahir Xəlilov APA ttp://apa.az/-ya bildirib ki, zəhərli toksik maddələrlə çirkləndirilən Girdiman çayının suyundan artıq içməli su kimi istifadə etmək, hətta çimmək və paltar yumaq mümkün deyil. Onlar içmək üçün hazırda avtomobillərlə baha qiymətə su almaq məcburiyyətində qaldıqlarını deyirlər. Kənd sakinləri məsələnin tezliklə araşdırılması və insanları təmiz sudan məhrum edən şəxslərin tapılması üçün aidiyyati qurumlardan xahiş edirlər.


### Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016

**"Keçmiş MTN şefi Eldar Mahmudovun qohumlarının sifarişi ilə həbs olundum, ağır işgəncələrə məruz qaldım, məcbur edirdilər ki, Ziya Bünyadovun ölümünü, adam oğurluğunu boynuma alım. Başqalarının törətdiyi cinayətləri zorla boynuma qoymağa çalışırdılar. Dəhşətli işgəncələrə dözməyib Ziya Bünyadovun ölümünü üstümə götürdüm. İttihamlar təsdiqini tapmayanda qanunsuz silah gəzdirməkdə və narkotik maddə saxlamaqda ittiham edib işi məhkəməyə göndərdilər".**



# "Mahmudovçu"ların həyatını alt-üst etdiyi biznesmen danışdı

## O, başına gətirilənlərin araşdırılmasını istəyir...

Bakı şəhər sakini, keçmiş məhbus Gülməmməd İbadov belə deyib. O, 2009-cu ildə başına gələnlərlə bağlı "Yeni Müsavat"a verdiyi və "Hacı Məmmədovun açılmamış cinayəti" sərlövhəsi altında qəzetimizdə dərc olunan müsahibəsində qeyd etdiyi faktları bir qədər də geniş şəkildə açıqlayıb. Başına gələnlərin araşdırılmasını ölkə rəhbərliyindən, səlahiyyət sahiblərindən xahiş edib. G.İbadov virtualaz.orq-a mal-mülkünün, obyeklərinin keçmiş MTN şefi Eldar Mahmudovun qohumları tərəfindən obyektlərinin əlindən alındığını açıqlayıb. Həyatını alt-üst edən, başına gətirilən bütün faciələrin səbəbkarı uşaqlıq dostu, yaxın qonşusu Vahid Həşimov olub: "Heç bir günahım olmadan 8 il həbsdə yatdım. Məni həbsə atdıran "Dəyirman" ləqəbli Vahid Həşimovla onun qardaşı Tofiq idi. Uzun illər yaxın qonşu, dost olmuşuq, şərikli biznesimiz olub. 1997-ci ildə Vahidin qardaşı oğlu Turalı oğurladılar. İki gün sonra isə məni həbs etdilər. İşgəncələrə dözməyib Ziya Bünyadovun qətlini boynuma götürməyə məcbur olsam da, uşaq oğurluğunu götürmədim.

Bir müddət sonra Tural Həşimovun oğurluğunda əli olanların özlərini həbs etdilər. Həbs edilənlərin hamısı ilə üzləşdirilmə keçirildi, cinayətdə əlimin olmadığı sübuta yetirildi. İttihamlar təsdiqini tapmayanda isə silah-sursatla, narkotiklə ittiham verdilər. Vahidin o vaxtlar Hacı Məmmədovla yaxın əlaqəsi vardı".

G.İbadov deyir ki, bütün bunlar azmış kimi, muzdlu killer tutaraq qardaşı Qərib İbadova sui-qəsd təşkil ediblər. Atəş nəticəsində qardaşı ağır yaralansa da, təsadüfən sağ qalıb: "Mənə və qardaşıma məxsus istehsalat obyektləri olan ayaqqabı sexlərinin zorla, saxta sənədlərlə əlimizdən alındı. Torpaq sahələrim, Qaradağda daş karxanam vardı, hamısına əl qoydular. Mən həbsdən çıxandan sonra əvvəlki münasibətlərin bərpa olunmasını istədi. Bizim iki obyektimizin əvəzinə Balakişiyev küçəsi, 23 və Məhsəti küçəsi, 9 ünvanda yerləşən obyektləri satıb pulunu verəcəyini dedi. Satdı, amma bizə pul vermədi. Onu Eldar Mahmudov himayə edirdi, deyirdi kimə istəyirsən, get şikayət elə, pulum da, adamım da var. Mansur adlı bir cangüdəni vardı, bizə qarşı çox pis davranırdı. Həmin bu Mansurgil qardaşım Qəribə və arvadına təzyiq ediblər, boş kağıza qol çəkdiriblər obyektlərə görə. O obyektlərdən bir neçə ailə dolanırdı, evinə çörək aparırdı".

G.İbadovun sözlərinə görə, Mansur adlı şəxs uzun illər Rusiyada yaşayıb. Rusiyanın sabiq prezidenti Boris Yeltsinin mühafizə xidmətinin rəis müavini olub, həbsdə yatıb: "Həbsdə olarkən guya onu Azərbaycana qarşı "verbovat" ediblər. O da Azərbaycana qayıdandan sonra bu barədə MTN-ə məlumat verib ki, guya ona Azərbaycanda terror aktları törətmək təklif olunub, o da razılaşıb. O vaxtdan MTN-də agent kimi işləyib. MTN-ə yaxın adam kimi Vahidin mühafizə rəisi olub. Bunlar mənim üstümə gəlirdilər ki, ya əl çəkməlisən tələblərindən, ya da yenidən içəri girəcəksən. Tez-tez Akif Çovdarovun adını hallandırırdılar ki, şefə məlumat verək, belə edək. Mansurgilin ciblərində vəsiqələri də vardı. Düzü, əvvəl çəkinmirdim, sonra ehtiyat edirdim ki, birdən doğrudan da məni təkrar tutarlar. Sonradan həmin o Mansurun özünü muzdlu qatil öldürdü. İndiyə qədər də bu cinayətin üstü açılmayıb".

Haqsızlığa dözməyən G.İbadov sonda məhkəmələrə üz tutub: "Biz Vahidlə o vaxt dəyirmanı da ortaq işlədirdik. Mənim heç nəyə ehtiyacım yox idi. Vahidin isə mənə 70 min dollar borcu vardı. Həmişə gözü mənim obyektlərimdə idi. Eldar Mahmudov nazir keçəndən sonra isə Vahid artıq göylə gedirdi. Hazırda tikinti sektorunda çalışır, 50-dən çox obyektləri var, amma mənim 2 obyektimi vermək istəmir. Məcbur olub məhkəməyə müraciət etdim. Çünki mənə qarşı böyük haqsızlıq oldu. Amma məhkəmədə də bu işlər obyektiv araşdırılmadı".

❑ **E.HÜSEYNOV**

# "İslam İttifaqı" koalisiyası niyə dayandı?



**Kənan RÖVŞƏNOĞLU**

**Xəbər verdiyimiz kimi, ötən ilin sonlarında Səudiyyə Ərəbistanının təşəbbüsü ilə "Terrora qarşı İslam İttifaqı" adlı koalisiya yaradılıb. 34 ölkənin qatıldığı ittifaqın mərkəzi Səudiyyə Ərəbistanında yerləşir, əsas təşkilatçı da Krallıqdır. Türkiyənin də qatıldığı bu ittifaqın ümumi ordularının sayı 3 milyon 363 min hərbçi və 19471 tank olmaqla böyük bir ordu hesab olunurdu. Bu isə bu günə qədər olan ən böyük hərbi koalisiyalardan biri idi, təbii ki, davam edə bilsəydi.**

Ancaq bu koalisiyaya İranın, o cümlədən Suriya və İraqın qatılmaması, 57 müsəlman ölkəsindən 34-nün təmsil olunması və Yaxın Şərqdə İran-Səudiyyə gərginliyinin davam etdiyi bir zamanda meydana çıxması bu koalisiyanın müsəlman ölkələri arasında gərginliyin nəticəsi olaraq ortaya çıxması haqda fikirlərə səbəb oldu.

Baxmayaraq ki, təsisçilər bu koalisiyanın əsas məqsədinin müsəlman ölkələrində baş qaldıran terror qruplaşmalarına qarşı mübarizə olduğunu bəyan etmişdilər. Hətta S.Ərəbistanı vəliəhdi, müdafiə naziri Məhəmməd bin Salman tərəfindən radikalizmə qarşı mübarizə olduğunu bəyan etmişdi. Lakin təmtəraqla elan olunan və hətta bir dəfə böyük bir hərbi manevr keçirən koalisiya nədənsə sonradan fəaliyyət göstərmədi. Baxmayaraq ki, bir neçə ay əvvəl koalisiyanın Suriyaya hərbi müdaxiləyə hazırlaşdığı haqda xəbərlər region ölkələri mediasında geniş yer almışdı.

Lakin gözlənildiyi kimi, koalisiya İraq, Suriya, Misir və Əfqanıstana əsgər göndərmədi. İndi isə İslam İttifaqı böyük ölçüdə unudulmuş kimi görünür. Baxmayaraq ki, yarandığı vaxtlarda ABŞ da bu koalisiyanı dəstəkləmişdi.

Bu koalisiyanın uğursuz olmasını region analitikləri bir sıra məqamlarla izah edir. 34 müsəlman ölkəsi dəstək versə də, bir çox ölkələr S.Ərəbistanın liderlik etdiyi koalisiyanın Krallığın münaqişə vəziyyətində olduğu İrana qarşı bir güc nümayişi olaraq qəbul edirdi. Bu səbəbdən də bir çox ölkələr formal olaraq dəstəkləsələr də, aydın məsələdir ki, bu koalisiyanın üzvü olaraq Yaxın Şərqdə onsuz da gərgin olan münasibətlər sistemini daha da gərginləşdirib müsəlman ölkələri arasında düşmənçiliyi daha da dərinləşdirmək istəmədi.

Digər tərəfdən, üzdə bir yerdə olsalar da, bir sıra ərəb-müsəlman ölkələri belə Krallığın regionda lider rolunu ələ almasını istəmirdi. Xüsusən də Qətər kimi ölkələr Suriya və İraq mövzusunda həmfikir olsalar da, Yaxın Şərqdə Səudiyyə liderliyi ilə barışmaq istəmir.

Bundan başqa Səudiyyə Ərəbistanının özünün bu cür geniş koalisiya üçün təcrübəsinin və geniş beynəlxalq siyasi dəstəyinin olmaması bu koalisiyanın güc mərkəzinə çevrilməsinə mane oldu. Bundan əvvəl Yəmənə hərbi müdaxilə zamanı 10 ölkə ilə ittifaq qursa da, əslində real olaraq yalnız ər-Riyad hərbi əməliyyatların yükünü öz üzərinə götürməli oldu. Digər ölkələrin qoşulması isə daha çox formal və görüntü xatirinə oldu.

Koalisiyanın fəal gücə çevrilə bilməməsinin daha bir səbəbi isə konkret olaraq hansısa əməliyyat və ya layihə həyata keçirə bilməməsi idi. Hətta əməliyyat gücü formalaşdırdığını elan etsə də, "İslam İttifaqı" Suriyada İŞİD-ə qarşı əməliyyat həyata keçirmədi. Bu plan ilk günlərdən Suriya hakimiyyətinin sərt etirazı ilə qarşılaşdı. Üstəlik aydın oldu ki, o qədər də savaş təcrübəsi olmayan, Yəməndə əməliyyatları bitirə bilməyən Krallıq generallarının rəhbərlik etdiyi koalisiya Suriyaya müdaxilə zamanı daha ciddi böhranla qarşı-qarşıya qalacaqlar. Bu səbəbdən də regionda münaqişə vəziyyətini daha da gərginləşdirməmək naminə ər-Riyad Suriyaya müdaxilə planından vaz keçdi. Ancaq təbii ki, koalisiyanın digər münaqişə ocaqlarına, müttəfiq Misirə və ya Əfqanıstana sülhyaratma missiyası göndərə bilərdi.

Ancaq görünən odur ki, həm Yəmən münaqişəsinin uzanması, həm də iqtisadi çətinlik, neft gəlirlərinin sürətlə azalması Krallığın böyük xərc tələb edən hərbi əməliyyata qol qoymasına mane oldu. Burda təbii ki, ABŞ-ın da rolu olmamış deyil. Çünki hər nə qədər müttəfiq olsa da, Vaşinqton ər-Riyadın müstəqil güc mərkəzinə çevrilməsini istəməz və bunun üçün dəstək verməz. Bütün bunlar və digər görünən, görünməyən maneələr Səudiyyə Ərəbistanının yeni qurulan koalisiya ilə regional hərbi əməliyyatlara başlamasına mane oldu. Təbii ki, bura bu cür situasiyalarda təcrübəli olan İran diplomatiyasının qarşı hücumlarını da əlavə etmək lazımdır.

# Referendumla bağlı qeydə alınan təşviqat qruplarının sayı üçə çatdı

## Sərdar Cəlaloğlu: "Müsavatın təşviqat qrupu qeydə alınacaq, lakin efirdən məhrum ediləcək"

**Konstitusiya dəyişiklikləri üçün sentyabrın 26-da keçiriləcək referenduma seçki komissiyalarının, təşviqat qruplarının hazırlıqları davam edir. MSK Yeni Azərbaycan Partiyasının yaratdığı "Yeni Azərbaycan" referendum üzrə təşviqat qrupunun qeydə alınması barədə qərar qəbul edib.**

MSK həmçinin sentyabrın 26-na təyin edilmiş referendumla bağlı bələdiyyələrin yaratdığı "Bələdiyyə" və bir sıra QHT rəhbərinin yaratdığı "Vətəndaş Cəmiyyəti" referendum üzrə təşəbbüs qruplarını təşviqat qrupları kimi qeydə alıb. Bununla da qeydə alınmış təşviqat qruplarının sayı üçə çatıb. İlk qeydə alınan təşviqat qrupu YAP-ın yaratdığı "Yeni Azərbaycan"dır. Onların Konstitusiyaya dəyişikliklər təkliflərinin lehinə təbliğat aparacaqlarını elan ediblər.



Əleyhinə təbliğat aparacağını elan edən yeganə təşəbbüs qrupu isə Müsavat Partiyasının yaratdığı "Respublika" təşəbbüs qrupudur. Partiyadan bildirilib ki, yerlərdə icra hakimiyyəti və hüquq-mühafizə orqanlarının yaratdığı maneələrə baxmayaraq lazım olan 40 min imza toplanıb. İmzaların və sənədlərin yaxın günlərdə MSK-ya təqdim ediləcəyi deyilir. MSK-nın "Respublika" təşəbbüs qrupunu da digər qeydə alınan üç təşviqat qrupu kimi asanlıqla, problemsiz qeydə alıb-almayacağı isə hələlik dəqiq bəlli deyil.

ADP sədri Sərdar Cəlaloğlu bu barədə "Yeni Müsavat"ın əməkdaşı ilə söhbətində maraqlı açıqlama verib. S.Cəlaloğlu deyib ki, MSK-nın Müsavatın yaratdığı təşəbbüs qrupunu qeydə alıb-almaması şübhəsiz ki, hakimiyyətin mövqeyində asılı olacaq, Müsavatın təşviqat qrupu qeydə alınacaq, amma efir hüququndan məhrum ediləcək: "Hakimiyyət formal demokratiya siyasəti aparır. Ona görə də prosedurlarda formalizmə yol verilir. Bu baxımdan referendum prosesində çoxsaylı təşviqat qruplarının olması, referendum və referenduma çıxarılacaq Konstitusiya dəyişikliklərinin əleyhinə olanların da təşviqat qrupunun iştirak etdiyi mənzərəsini yaratmaq üçün Müsavatın yaratdığı təşviqat qrupunu qeydə alınacaq. Hakimiyyətə prosesdə opponentin olmasını dünyaya göstərmək çox vacibdir. Bu baxımdan da Müsavatın təşviqat qrupu qeydə alınacaq. Amma YAP-ın təşviqat qrupu və digər iki təşviqat qrupu hakimiyyətin planına uyğun olaraq İctimai Televiziyada təbliğat-təşviqat üçün ayrılan efir vaxtından imtina edəcəklər. Bu da Müsavatın yaratdığı "Respublika" təşviqat qrupunun efirdən təbliğat apara bilmək imkanından məhrum qalmasına gətirib çıxaracaq. Çünki Seçki Məcəlləsinə belə bir maddə daxil ediblər ki, seçkilərdə və referendumda efirdə birtərəfli qaydada təşviqata yol verilmir, efirdən təşviqat debat şəklində olmalıdır. Nə qədər anti-demokratik olsa da Seçki Məcəlləsinin tələbi bunu deyir. Bu ayrı məsələdir ki, qanuna vaxtilə daxil edilən bu cür maddə antidemokratik və absurddur, çünki bir təşviqat qrupunu faktiki olaraq digərlərinin qərarından asılı vəziyyətə gətirib çıxarır. Müsavat rəhbərliyi Seçki Məcəlləsini şübhəsiz ki, yaxşı bilir. Müsavat rəhbərliyi qanunda qeyd etdiyimiz maddəni nəzərə almalı idilər. Müsavat ən yaxşı halda təbliğat üçün ayrılmış qapalı və açıq bir neçə məkanda görüş, mitinq keçirə biləcək".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016



# Türkiyə Bəşər Əsədi ipdən alır?

## Ankara Suriya siyasətini dəyişir - 3 səbəb

**Türkiyənin baş naziri Binali Yıldırım şənbə günü xarici media nümayəndələrinə verdiyi brifinqdə Suriya mövzusuna bir daha toxunub. Suriya probleminin artıq regional böhrana çevrildiyini bildirən baş nazir Ankaranın münasibətini də qeyd edib.**

Suriya münaqişəsinin həllində əsas tərəflərdən birinin bu ölkə ilə 911 kilometr sərhədləri olan Türkiyə olduğunu xatırladan Yıldırım hazırda regionun və dünyanın bütün güclü dövlətlərinin Suriya böhranında bu və ya digər şəkildə iştirak etdiyini söyləyib. Yıldırım deyib ki, indi Ankaranın əsas hədəfi Suriyada axan qanın dayanması, insan həyatı üzərindən aparılan qanlı rəqabətin dayandırılmasıdır. 6 ay içərisində ciddi gəlişmələrin olacağını qeyd edən Yıldırım hazırda əsas öncəliklərin Suriyanın ərazi bütövlüyünün qorunması olduğunu deyib. Eyni zamanda ölkənin bir etnik və ya dini qrupun idarəsindən çıxarılmalı olduğunu bildirib.

Baş nazir onu da deyib ki, Suriyanın gələcəyində Bəşər Əsədin olmasına razı olmasalar da, hazırkı şərtlərdə keçid dönəmində Əsədin qalması mümkündür. "Biz Suriyanın gələcəyində PKK, İŞİD və Əsəd olmamalıdır, deyə düşünürük - bu ölkədə sabitliyin tam olaraq bərpa olunması üçün. Ancaq istəsək də, istəməsək də hazırda əsas oyunçulardan biri Əsədir. Digər etnik qruplar da öz imkanları çərçivəsində mübarizə aparırlar - PYD, İŞİD, digər qruplar, rejim tərəfdarları. Eyni zamanda bir şəkildə ABŞ, Rusiya, Türkiyə, İran və digər ölkələr münaqişənin həll olunması naminə Suriyada mövcudluğunu qoruyub saxlayırlar", - deyə Yıldırım qeyd edib.

Ancaq daha sonra Türkiyə baş nazirinin ofisi açıqlama yayaraq "Reuters" Agentliyinin Yıldırımın dilindən "keçid dönəmində Əsədlə danışıqlar aparıla bilər" ifadəsini təkzib edib. Açıqlamada Əsədin tərəf-müqabilinin Suriya müxalifəti olduğu qeyd edilib.

Ancaq istənilən halda həm son açıqlama, həm də bundan əvvəlki rəsmi Ankaranın Suriya münaqişəsi ilə bağlı səsləndirdiyi fikirlər, hökumətin Suriya ilə bağlı siyasətində dəyişiklik etməyə hazırlaşdığını göstərir. Amma təbii ki, Türkiyə 5 ilə yaxın bir müddətdə kəskin bir xətti aparıb, indi bu siyasətin 180 dərəcə dəyişməsi mümkün deyil. Lakin baş nazirin də qeyd etdiyi kimi, Suriyadakı vəziyyət, bölgədəki şərtlər Türkiyəni Suriya siyasətinə yenidən baxmağa sövq edir. Türkiyəni bu dəyişikliyə sövq edən isə bir neçə



önəmli səbəblərdir.

İlk növbədə Suriyada davam edən savaş və onun gətirdiyi humanitar fəlakət qeyd olunmalıdır. 5 ildən artıq davam edən hərbi münaqişədə Suriya hakimiyyətini silahla devirmək mümkün olmadı. Əksinə, son illərdə Bəşər Əsəd ölkə daxilində hakimiyyətini daha da möhkəmləndirib və əhalinin daha çox hissəsi məhz hakimiyyətin nəzarət etdiyi bölgələrdə yaşayır. Üstəlik, daha çox əcnəbi silahlıların savaşdığı Suriya müharibəsi getdikcə daha çox müdaxilə görüntüsü alır. Savaşın və paralel olaraq humanitar fəlakətin dərinləşməsi, qaçqınların sayının günü-gündən artması digər dövlətlər kimi Türkiyəni də böhranın həlli ilə bağlı yeni yollar axtarmağa sövq edir.

İkinci mühüm amil Suriyanın ərazi bütövlüyü və bunun yaratdığı təhlükənin Türkiyəni də təhdid etməsidir. Türkiyənin bir Yaxın Şərq ölkəsi olaraq unitar quruluşunu qoruması həm də qonşu ölkələrlə bağlıdır. Suriyanın şimalında kürdlərin federasiya qurması və faktiki olaraq güc mərkəzinə çevrilməsi Türkiyənin ərazi bütövlüyünü təhdid edən ciddi təhlükədir. Çünki birincisi, Suriya ərazisindəki kürd təşkilatı PKK-nin mütəfiqi və eyni ideologiyanı daşıyan, bir mərkəzdən idarə olunan PYD-dir. Yəni PYD-nin güclənməsi həm də PKK-nın güclənməsi və Türkiyənin ərazi bütövlüyünə birbaşa təhdiddir. Üstəlik, Suriyanın şimalının zolaq olaraq İraq sərhədlərindən Aralıq dənizinə qədər olan ərazilərin kürdlərin əlinə keçməsi Yaxın Şərqdə yeni enerji koridoru layihəsinin yolunu açır ki, bütün bu layihələr Türkiyənin ərazi bütövlüyü və dövlət maraqlarına təhdiddir. Dolayısı ilə indi Türkiyə üçün Suriya məsələsi birbaşa təhdidə çevrilib və əsas narahatlıq Suriyanın ərazi bütövlüyünün qorunmasıdır. Çünki əks təqdirdə, bu vəziyyət digər region ölkələrinə yayıla bilər.

Üçüncü mühüm səbəb Suriya böhranının Türkiyəni regionda daha əvvəl oynadığı güc mərkəzi rolunu zədələməsi, onun barışdırıcı, güclü ölkə mövqeyindən çıxararaq faktiki savaş tərəfi ölkəyə çevirməsi ilə bağlıdır. Xüsusən də son illərdə Türkiyə regionda İran, İraq və Rusiya kimi ölkələrlə qarşıdurma həddinə gəldi. Bu da ölkənin siyasi mövqeyi ilə yanaşı iqtisadi, enerji və diplomatik əlaqələrinə mənfi zərbə vurdu. Son dövrlərdə Türkiyə məhz regionda pozulmuş münasibətlər sistemini yenidən bərpa etməyə çalışır. Bunun üçünsə ilk növbədə əsas maneə olan Suriya böhranı həllini tapmalıdır.

Sadalanan səbəblər Ankaranı Suriya məsələsində bütün tərəflərlə anlaşmalı olaraq yeni praktik həll variantı tapmağa sövq edir. Bu isə təbii ki, hər iki tərəfin müəyyən güzəştlərə getməsini tələb edir. Hazırda əsas "düyün nöqtəsi" Bəşər Əsədin taleyi olduğu üçün ən azı keçid dövründə tərəflərin ortaq bir plana ehtiyac var. Bu isə indi daha çox B.Əsədin də yer aldığı yeni keçid mərhələsinin ortaya qoyulmasını tələb edir. Böyük ehtimalla, söhbət yeni hakimiyyətin bölünməsi, indiki hakimiyyətin də yeni hökumətdə pay alması və keçid dönəmindən sonra Əsədin çəkilməsi kimi bir plan olacaq. Ancaq bu anlaşmanın reallaşması üçün tərəflər arasında möhkəm inama və qarşılıqlı razılaşmaya ehtiyac var. Bunun əldə olunması isə müəyyən zaman tələb edəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# PKK-nın ardınca bu dəfə İŞİD Türkiyəni qana boyadı - onlarla ölü

## Terrorçular indi də ölkədə etnik-dini zəmində gərginliyi artırmağa cəhd edirlər



**Avqustun 20-də axşam saatlarında Türkiyənin Qaziantep vilayətində baş verən terror aktı nəticəsində ölənlərin sayı 50 nəfərə çatıb. Bu barədə Qaziantep valiliyinin yaydığı açıqlamada məlumat verilir. Şahinbəy rayonunun Beybahçe məhəlləsində toy mərasiminin keçirildiyi salonda baş verən terror nəticəsində 94 nəfər insan yaralanıb.**

İlkin ehtimallara görə, terroru "canlı bomba" həyata keçirib. Prezident Rəcəb Tayyib Ərdoğan terror aktının şübhəlisinin İŞİD olduğunu qeyd edib. Türkiyə Prezidentinin adından yayılan rəsmi açıqlamada Qaziantep terrorunu İŞİD-in törətdiyi qeyd olunur və ölkənin hazırda İŞİD, FETÖ və PKK terroru ilə mübarizə apardığı qeyd olunur. Sitat: "Ölkəmiz və millətimiz 15 iyul silahlı qiyam cəhdi və o gecə itirdiyimiz 240 həmvətənimizin qatili FETÖ, sadəcə son bir ayda 70 nəfərə yaxın hərbçi, polis və kənd mühafizəçisinin qatili PKK ilə Qaziantep terrorunu törətdiyi ehtimal olunan İŞİD arasında heç bir fərq yoxdur".

Qeyd edək ki, terrorun törədildiyi məkan xüsusi olaraq seçilib. Hadisənin baş verdiyi məhəllədə Siirt vilayətindən, eləcə də Van, Urfa və Qaziantepdən olan insanlar yaşayıb. Toyu olan ailə isə Siirt əsilli olub. Baş nazirin müavini Mehmet Şimşek terrorun ilkin ehtimallara görə kamikadze tərəfindən törədildiyini bildirib. İlkin bilgilərə görə, bomba toyun keçirildiyi salona uşaq arabasında gətirilib. M.Şimşək ardıcıl terror hücumlarının əsas hədəfinin Türkiyədə sabitliyi pozmaq, ölkə daxilində qarşıdurma yaratmaqdır.

Terrorun baş verdiyi rayon dini və etnik baxımdan zəngin bir ərazi sayılır. Burda türk, ərəb, kürd əsilli insanlar, o cümlədən ələvi, sünni kəsim yanaşı yaşayır. Baş nazirin müavininin təxribat xəbərdarlığı çox güman ki, terror hadisəsindən sonra rayonda etnik və ya məzhəbi gərginlik yaradılması narahatlığı ilə bağlı olub.

HDP də bəyanat yayaraq, terrorda partiyanın üzvlərinin hədəfə alındığını bildirib. Açıqlamada partiya üzvlərinin də toy mərasimində olduğu qeyd edilir. Xatırladaq ki, ötən ilin yayında Suruçda və oktyabrda Ankarada İŞİD tərəfindən həyata keçirilən terror aktlarının hədəfə alınan solçu və əsasən ələvi qruplar olmuşdu. Bununla da müşahidəçilərə görə, əsas hədəf ölkə daxilində etnik və məzhəbi gərginliyi artırmaq olub.

15 iyul qiyamından sonra bir neçə müddət sakit olan PKK və İŞİD-in yenidən fəallaşması diqqət çəkir. Hökumət yetkililəri bu fəallığın arxasında Türkiyədə daxili sabitliyi pozmaq, xaos yaratmaq cəhdlərinin olmasına işarə edir, terror aktlarının FETÖ ilə bağlantılı olacağına işarə edirlər. Yeri gəlmişkən, 3 gün öncə yenə Qaziantepdə Yaponiyadan gələn turistlərin dindar görünüşlü şəxslərin hücumuna məruz qalması görüntüləri yayılmışdı. Birbaşa əlaqə olmasa da, hər iki hadisə arasındakı bağ bölgədə dini zəmində gərginliyin artırılmasına xidmət edir. Sanki kimlərsə Türkiyədə etnik və dini zəmində gərginliyin artmasına çalışır.

Bu tendensiyanın elementləri 15 iyul olaylarından sonra da hiss olunmağa başladı. Hadisələrdən az sonra bəzi bölgələrdə meydan aksiyalarında ələvilərə, eləcə də dünyəvi insanlara qarşı hücum çağırışları edənlər oldu. Doğrudur, həmin vaxt xalq arasında güclü olan milli birlik və bütünlük çağırışları bu təxribatların baş tutmasının qarşısını almışdı, ancaq görünür ki, indi hələ də fərqli bölgələrdə bu taktikanı həyata keçirmək istəyənlər var.

Hazırda ölkə daxilində, dövlət və ictimai qurumlarda FETÖ üzvlərini təmizləməklə məşğul olan Türkiyə hakimiyyəti eyni zamanda demək olar ki, hər gün davam edən PKK və İŞİD terroru ilə də qarşı-qarşıyadır. Bir sıra ekspertlərə görə, uzun müddət hökumətin Suriya siyasəti səbəbilə radikal qruplara manеə yaratmaması, eyni zamanda PKK ilə saziş nəticəsində hər iki qruplaşma Türkiyə ərazisində möhkəmlənə bilib. İndi isə ölkə daxilində yaranmış situasiyada hökumətin 3 cəbhədə mübarizə aparması faktiki olaraq mümkün deyil. Üstəlik, dövlət qurumlarının daxilində təmizlənmə ilə yaranmış boşluq, əsas diqqətlərin qiyam sonrası təmizlənməyə yönəlməsi İŞİD və PKK kimi terror qruplarının əl-qolunu açır.

Bir sıra analitiklərə görə, qiyam sonrası davam edən silsiləvi hadisələr Türkiyədə xaos vəziyyəti yaratmağa hesablanıb. Ardıcıl terror aksiyaları, ölkə daxilində etnik və dini qruplar arasında gərginliyin artması nəticəsində Türkiyədə hökumətin başı daha çox daxili problemlərin həllinə qarışacaq, daxildə gərginlik artacaq. Bu isə hətta qiyamdan da daha dəhşətli nəticələrə səbəb ola bilər. Məhz bu səbəbdən də hazırda hökumət daha çox milli birlik və bütünlük üzərinə vurğu edərək, ölkə daxilində bütün siyasi, etnik və dini qrupları bir arada saxlamağa, ehtimal olunan gərginliyin qarşısını almağa çalışır.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016

**Türkiyədə əfsanəvi "qanuni oğru" Rövşən Canıyevin ("Lənkəranski") qətli Rusiya paytaxtında qanlı mübahisələrə "ayaq" verib. Azərbaycanlıların işlətdiyi, "Rövşən Lənkəranski"nin yaxın ətrafının nəzarətində olan meyvə-tərəvəz bazarlarında vəziyyət gərginləşib.**

# "Lənkəranski"nin qətlində yeni şok versiya - gürcülər kürdlərlə birlikdə...

## "Şakro Molodoy"un həbsindən sonra yeni Laşa Şuşanaşviliyə ən böyük əngəl azərbaycanlı "qanuni oğru" olub; Rusiya paytaxtında qanlı toqquşmalar gözlənilir




"Rosbalt" agentliyi xəbər verir ki, oğru dünyasının generalının qətli bazarlara nəzarəti həyata keçirən Rövşən Lənkəranskinin yaxın ətrafının durumunu çətinləşdrib. Artıq bəzi şəxslərin ölümcül döyülməsi xəbəri var.

### Bazarlarda vəziyyət nəzarətdən çıxır

Sayt yazır ki, Moskvadakı meyvə-tərəvəz bazarlarında "Rövşən Lənkəranski"nin qətlinə qədər də vəziyyət o qədər də rahat olmayıb. 2013-cü ilin yanvarında "Ded Xasan" ləqəbli Aslan Usoyan öldürüləndən sonra qətldə "Lənkəranski"nin adının hallanması ümumilikdə bu sahədə vəziyyəti gərginləşdirib. Əks cinahda olan, "Lənkəranski"nin qətlində sifarişçi kimi adı ön sırada hallanan, hazırda həbsdə olan kriminal aləmdə "Şakro Molodoy" kimi tanınan Zaxariy Kalaşov öz adamları vasitəsi ilə bazarların gəlirlərinə sahiblənmək üçün hərəkətə keçib. Həmin ərəfədə Rövşən daimi yaşayış yerini Moskvadan Türkiyəyə dəyişməklə bütün Moskva regionunun meyvə-tərəvəzin topdansatışı ilə məşğul olan bazarlarına birbaşa nəzarəti özünə yaxın "qanuni oğru" Merab Canqveldzenin qardaşı Levan Canqveldzeyə tapşırıb. Moskvanın meyvə-tərəvəz bazarlarına ümumi nəzarət isə Rövşənin Zaur adlı yaxın qohumunun kurasiyasında olub.

### Bazarlara nəzarət uğrunda "razborka"da güllələli cavab

2015-ci ildə Moskvadakı topansatış bazarlarına "Şakro Molodoy"un qruplaşmasına daxil olan kriminal avtoritet Vaqif Süleymanov müdaxilələr etməyə başlayıb. "Lənkəranski"nin nəzarətində olan bazarlarda meyvə-tərəvəzin topdan satışı ilə məşğul olan biznesmenlərə hədə-qorxu gəlməklə özlərinin nəzarətində olan bazarlara yönləndirmək cəhdləri olub. "Lənkəranski"nin yaxın ətrafının gözlənilən reaksiyası da çox da gecikməyib. Vaqif Süleymanovun planında əsas rol alanlardan biri, böyük maliyyəyə sahib olan biznesmen Canbulat Şamil oğlu olub. Bu ilin martında Canbulat Şamil oğlu başından güllə yarası almaqla öldürülüb. Bu qətldən sonra onun ölümündə "Lənkəranski"nin əlinin olmasına vəziyyətdən hali olanlardan kimsədə şübhə qalmayıb. Bundan başqa "Lənkəranski"nin Moskvadakı "işlərini" aparan Zaurun qətldən dərhal sonra gücləndirilmiş mühafizə dəstəsi ilə gəzməyə başlaması, Vaqif Süleymanovun bazarlarından meyvə-tərəvəzin topdansatışı ilə məşğul olanların "Lənkəranski"nin bazarlarına kütləvi axınının təmin olunması qətldə bütün oxları ona istiqamətləndirib. Son günlərə qədər davam edən bu "razborka"ların pik nöqtəsinə çatması Rövşənin İstanbulda qətlə yetirildiyi günlərə təsadüf edib. Üstəlik, "Lənkəranski"nin qətlindən az əvvəl Vaqif Süleymanovun arxasında selueti görünən "Şakro Molodoy" həbsə alınıb. V.Süleymanovun "Şakro"dan başqa "Ded Xasan" və digər nüfuzlu kriminal avtoritet Laşa Şuşanaşvili ilə də yaxşı münasibətlərinin olması xəbəri var. Rövşənin qətlinə qədər onun nəzarətində olan bazarlarda alver edənlər rahat şəkildə, qorxu-hürküsüz öz işləri ilə məşğul ola bilirdilərsə, qətldən dərhal sonra durum ağırlaşıb. Döyülənlər, ölüdürülmək təhlükəsi ilə üz-üzə qalanlar var. Bazarlara topdan meyvə-tərəvəz daşıyan iş adamları çətin durumda nə edəcəklərini bilmirlər. Bir çoxları vəziyyət aydınlaşana qədər işi dayandırıb. Moskvada "Lənkəranski" tərəfdarları ilə opponentlərinin çox ciddi toqquşmalarının olacağı gözlənilir.



### Qətl baş verən gecə...

"Rosbalt" vəziyyətdən hali olan mənbəyə istinadən yazır ki, "Rövşən Lənkəranski" Türkiyədə məskunlaşdığı ilk dövrlədə təhlükəsizlik məsələlərinə ciddi riayət edib. Son 1 ildə isə bu məsələyə elə də əhəmiyyət verməyib. İstanbulun Barbaros bulvarındakı otellərdən birinin 1 mərtəbəsinin yarısını kirayələyən "Rövşən Lənkəranski" orada bütün işgüzür söhbətləri aparıb. Əfsanəvi nüfuz sahibini axtaranlar orada xüsusi yoxlamadan keçməklə onunla görüşə biliblər. Geniş tərkibli görüşlər otelin restoranında baş tutub. Belə tədbirlər zamanı restorana şübhəlilərin girişi qadağan olub. Sıradan olan müştərilər isə ümumi yoxlamadan sonra restoranda "yeraltı dünya"nın nüfuz sahibləri ilə qonşu masanı bölüşmələrini ağıllarına belə gətirmədən kəmərlərinin altını bərkidiblər. "Rövşən Lənkəranski"nin Barbaros bulvarındakı həmin oteldə qaldığını çoxları bilib. Onunla kriminal aləmin bir çox nümayəndələrinin görüşü məhz həmin oteldə olub. Bu məlumatlar onu deməyə əsas verir ki, opponentləri "Lənkəranski"nin harada yaşadığını, nə vaxt hara getdiyini ilk cəhddən öyrənmək imkanlarına malik olublar. Qətl baş verən gecə Rövşən oteldə öz yaxın ətrafına daxil olan şəxslərlə görüş keçirib. Görüşdən sonra oteldən çıxan "Rövşən Lənkəranski" qətlə yetirildiyi maşına əyləşib. Rusiya mətbuatında avtomobilin sürücüsünün "Rövşən Lənkəranski"nin sinif yoldaşı olması haqda xəbər var. Qeyd olunur ki, "qanuni oğru" sürücüsünün maşını bir qədər sürətlə hərəkət etdirməsi onun ardınca hərəkət edən, bir növ mühafizə xidmətini həyata keçirən tərəfdarlarını ölümdən qurtarıb. Belə ki, mühafizəçilərin olduğu maşın killerlər "Lənkəranski"nin olduğu maşını güllə-baran etdikdən az sonra olay yerinə çatıblar. Sonradan türk polisi həmin maşında olan şəxsləri saxlayıb. Onlardan biri "Lənkəranski"nin xeyir-duası ilə "qanuni oğru" adını almış, daha çox "Hacı Beyləqanski" kimi tanınan Hacıbaba Talıbxanlıdır.

"Yeraltı dünya"nın yazılmamış qaydalarına görə "qanuni oğru"nun qətli maliyyə məsələləri ilə əsaslandırıla bilməz. Bir məqamda "qanuni oğru"nun maliyyəyə görə qətlinə icazə verilir - bu da "obşak"ın puluna əl uzadılması məsələsidir. "Lənkəranski"nin qətlində bu motivin hallanması belə yersizdir. Odur ki, sui-qəsdlə bağlı ən çox yayılan versiya 2013-cü ildə qətlə yetirilən "Ded Xasan" tərəfdarlarının "cavabı"dır. 2013-cü ilin soyuq yanvarında "Ded Xasan" 15 qramlıq bir neçə qurğuşun parçasını "hədiyyə" alıb dünyadan köçəndə onun tərəfdarları qətldə nüfuz sahibləri "Taro"kimi tanınan Tariel Oniani, Merab Canqveladze, "Lənkəranski", "Cemo" ləqəbli Camal Mikeladzedən şübhələnmişdilər. Belə nəticəyə gəlmişdilər ki, qətlin ideya müəllifi "Taro", təşkilatçısı isə "Lənkəranski" olub. Qətldən sonra belə məlumat yayılmışdı ki, "Ded Xasan"ın qanının axıdıldığı ərazidə "Lənkəranski"nin adamlarından sayılan Ülfət Tağıyev gözə dəyib. Ülfəti həmin qətlin icrası ilə əlaqədar Gürcüstandan Moskvaya Cemonun yolladığını da "Ded Xasan" tərəfdarları öyrənə bilmişdilər. Belə xəbərlər var ki, "Lənkəranski"nin qətli "Ded Xasan" tərəfdarlarının qisas aksiyasıdır.

### Qətli kim və niyə sifariş verib?

Bununla belə, "qanuni oğru"nun qətlində digər bir motivin olması da istina deyil. Avqustun əvvəlində yezidi kürdü olan "Şakro Molodoy"un həbsindən sonra "yeraltı dünya"da bütün işlərə kimin rəhbərlik edəcəyi məsələsi geniş müzakirə mövzusuna çevrilib. Afinada yaşayan, "Ded Xasan"ın ölümündən sonra onun tərəfdarları olan "qanuni oğru"ları -Yuriy Piçuqin("Piçuqa"), Vasiliy Xristoforov ("Vasya Voskres"), Dmitriy Çanturiya("Miron"), Valeriy Farizov("Valera Tbilisskiy"), Vitaliy Avdiyan("Vitya Tbilisskiy") öz ətrafına toplaya bilən gürcü Laşa Şuşanaşvili bu posta ən real namizəd kimi göstərilib. Lakin "Lənkəranski" ilə Merab Canqveladzenin varlığı Laşanın namizədliyinin təsdiqi yolunda böyük bir problem kimi ortalıqda olub. "Rövşən Lənkəranski"nin ölümü Laşanın opponentlərinin güc mərkəzinin aradan qalxması, onun "yeraltı dünya" rəhbərliyinə gedən yolda ciddi problemlərinin ortadan götürülməsi deməkdir.

### "İstanbul klanı" dağılmaq təhlükəsi ilə üz-üzə qalıb

Belə məlumatlar da var ki, artıq Antaliyada yaşayan Canqveladzenin də aradan götürülməsi üçün killerlərə sifariş verilib. Əgər onu da aradan götürsələr, şərti olaraq "İstanbul klanı" adlanan qruplaşmaya daxil olan 10-a yaxın "qanuni oğru" faktiki olaraq başsız qalacaqlar. Hazırda həbsdə olan "Taro" həbsdən azad ediləndək Laşanın nüfuz sahibi olan ağır çəkili düşməni olmayacaq.




❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016

**Əslində düz deyirlər, qanunun aliliyinə, demokratik prinsiplərə, bəşəri dəyərlərə riayət və hörmət edilən, mədəni, savadlı, firavan cəmiyyətlərdə kriminal avtoritetlərə bəslənən rəğbət dar bir çərçivədən çıxmamalıdır.**

**Xalid KAZIMLI**

# Kriminallaşmış cəmiyyətin "avropalı güldərənləri"



Amma bura haradır?

Bura çay kənarında oturub tutduğu balıqları xətkeşlə ölçən, 20 santimetrdən yuxarı balıqları vedrəyə, 19 santimlikləri yenidən çaya atan almanların yaşadığı Bavariya əyalətidirmi? Xeyr. Bura çay, göl, kanal və sair su hövzələrində qumbara partlatmaqla, suya cərəyan buraxmaqla barmaq boyda balıqları da qıran azərbaycanlıların yaşadığı ölkədir.

Bura üç irqə, üç dünyəvi dinə, yüz bir millətə, hər cür dini, milli, cinsi azlıqlara mənsub insanları ayrı-seçkilik etmədən barındıran Hollandiyadırmı? Yox. Bura dərisinin rənginə görə kürdəmirlini qubalıdan, qaxlını qazaxlıdan ayıran və hər dəqiqə nəsə bir ayrı-seçkilik edənlərin ölkəsidir.

Bura isveçlilərlə finlilərin birgə yaşadığı və əyalətin inzibati baxımdan İsveçə və ya Finlandiyaya məxsus olduğuna fikir verməyən azad insanların yaşadığı Aland adalarıdırmı? Əsla. Bura eyni dili danışan, eyni dinə tapınan, ancaq vaxtaşırı mahal, rayon, kənd davası aparan insanların vətənidir.

Bura ölkənin baş nazirindən dövlət büdcəsindən xərclədiyi sonuncu avronun haqq-hesabını tələb edən, vergi ödəyicisi olduğu üçün özünü dövlətin sahibi kimi aparan tələbkar insanların yaşadığı İngiltərədirmi? Qətiyyən. Bura dövlət büdcəsini istədikləri kimi talan edən, çalan-çapan və xalqa heç bir hesabat verməyən məmurların ölkəsidir.

Bura ölkənin yeraltı sərvətlərini qənaətlə istismar edən, neftdən gələn pulları xüsusi depozit hesablarında 50-100 il sonrakı nəsillərə saxlayan Norveçdirmi? Haşa. Bura Neft Fonduna toplanmış pulları tez bir zamanda müxtəlif mənasız layihələrə sərf edən, havaya sovuran, 3-5 il sonrakı nəsillərin taleyini düşünməyən vəzifəli şəxslərin ölkəsidir.

Bura halal məmur maaşıyla dolanan, əlini harama bulamayan dürüst avropalı məmurların ölkəsi deyil, bura korrupsiya ilə rahat məşğul olmaq üçün dövlət vəzifələrini gizli hərracda açıq artırma yolu ilə satın alan kadrların ölkəsidir.

Bura kütləvi şəkildə maddi sərvət, komfort, kalori əldə etmək üçün hər cür qanunsuzluqlara qol qoyan, hər cür oğurluqlara, talançılıqlara əl atan insanların ölkəsidir.

Bura haramxorluğun lənətlənmədiyi, qınanmadığı, rüşvətxorluğun təşviq edildiyi, əliəyriliyin norma sayıldığı ölkədir.

Bura yüksək mənsəbli dövlət adamlarının cinayətkar birliklər quraraq adam oğurladığı, milyonluq xəraclar tələb etdiyi, rəsmən reketçiliklə məşğul olduqları ölkədir.

Bura başdan-ayağa kriminallaşmış, kriminala bulaşmış ölkədir.

Bura dürüstlüklə cinayətkarlığın sərhədlərinin bir-birinə qarışıb pozulduğu ölkədir.

Ona görə də burada kriminal avtoritetə rəğbət bəslənilməsi adi haldır.

Camaat üçün fərqi yoxdur ki, bu hansısa cinayət üstündə məhkum olunmuş kriminal avtoritetdir, yaxud da hələ törətdiyi cinayətlərə görə məhkum olunmamış oliqarx nazirdir.

Hamı bilir ki, o nazir də öz milyonlarını dövlətin qanunlarını pozmaqla qazanıb, bu kriminal avtoritet də. İndi necə olsun? Xalq onlardan birinə hörmət etməli, digərini lənətləməlidir?

Özü də bu cür yanaşma indilərin söhbəti deyil. Misal üçün, klassik ədiblərimizin 150 il öncə yazdıqları əsərlərə baxaq. "Hacı Qara"da Əsgər və Heydər bəy qaçaqmalçılıq edərək pul-para qazanmaq, toy etmək istəyirdilər, buna görə kimsə onları qınayırdımı? Xeyr. "Hekayəti Xırs-quldurbasan"da Tanrıverdiyə qız vermirdilər ki, oğurluq, çapovulçuluq edə bilmir, ondan arvad saxlayan olmaz. Mirzə Cəlilin "Quzu" əsərində kasıb kəndli bir quzunu özü kəsib yediyi halda pulunu içkili bəydən üç dəfə alır. "Dədə Qorqud"da Qazan xan oğlu Turalı "baş kəsib, qan tökub ad çıxara bilməmək"də qınayır, onun çöldə gül dərməsini pisləyir.

Günümüzü götürək, hansısa məclisdə korrupsioner, rüşvətxor, əliəyri məmurların pisikdirildiyini görmüşükmü? Görməmişik. Elələrinin yeri həmişə başdan, ən hörmətli yerdən olur.

İndi biz bu cür anormal vərdişləri, yanlış düşüncələri olan cəmiyyətdə yaşaya-yaşaya birdən-birə özümüzü "avropalı güldərən"lər kimi aparmaq istəyirik, "kriminal avtoritetə bu sayaq rəğbət anormaldır" deyirik.

Yaxşı, kriminal avtoritetləri iqnor edək, eyni şeyi korrupsionerlərə, büdcə oğrularına, seçkiləri saxtalaşdıranlara qarşı da edə biləcəyikmi? Edə bilməyəcəyik. Kimlərsə "tutulmayan oğru, xandan, bəydən doğru" deyə bu duruma haqq qazandıra bilər. Ancaq siyasi motivlərlə olsa da, korrupsiya üstə, dövlət əmlakını talamaq, xalqın cibinə girmək üstə həbs edilən, mühakimə olunan nazirlər vardı, türmədən çıxan kimi süddən çıxmış ağ qaşığa döndülər. Heç onlara kriminal ünsür kimi baxan yoxdur. Hətta ətraflarında birləşmək üçün hazır olan on minlərlə adam var.

Anormallığın ən yekəsi budur ki, bu ölkədə az qala hər kəs kriminala (adam döydürməkdən tutmuş vergidən yayınmaya qədər, xırda rüşvətxorluqdan tutmuş milyonluq maxinasiyalara qədər) bulaşmış olduğu halda yalnız toyuq oğrularını, narkotik maddə alverçilərini və sair xırda cinayətkarlıqla məşğul olanları cani sayır.

Guya həmin xırda caniləri istintaq edən müstəntiqlər, prokurorlar, mühakimə edən hakimlər Aydan arı, sudan durudurlar? Baxaq, o xırda cinayətkarın nəyi var, onları istintaq və mühakimə edənlərin nələri var. Görək onlardan hansı xalqdan daha çox çırpışdırıb.

Dünən sosial şəbəkədə bu məsələyə dair belə bir status vardı: "500 manatlıq maaşla 100 minlik maşın sürür, 200 minlik evdə yaşayır, cəmiyyətin oğrulara rəğbətinin anormal olmasından danışır".

**Budur məsələ.**

# AXCP-də gülənçi həbsləri: Əli Kərimlinin köməkçisi nədə ittiham olunur?

## Səadət Bənəniyarlı: "Prosesləri diqqətlə izləyirik"

**Azərbaycanda Fətullah Gülən tərəfdarlarına cinayət işi açılması və bununla bağlı həbslər artır. Əvvəlcə gülənçi olduğu iddia edilən AXCP-nin Xətai rayon Gənclər təşkilatının sədri Fuad Əhmədli, ardınca da, avqustun 20-də isə AXCP sədri Əli Kərimlinin köməkçisi, "Azadlıq" qəzetinin maliyyə direktoru Faiq Əmirli saxlanılıb. F.Əmirovun evində axtarış da aparılıb. O, Nərimanovdakı müvəqqəti saxlanma t?cridxanasına aparılıb. Bu barədə vəkil Aqil Layıcov məlumat verib.**





"Əmirova qarşı hansı ittiham irəli sürülürsə sürülsün, bu, əsassız olacaq. Baş verənlər şəxsən mənə və partiyaya qarşı yönəlmiş sürətli repressiya kampaniyasının bir hissəsidir" deyə AXCP lideri Əli Kərimli "Turan"a bildirib.

Qeyd edək ki, avqustun 19-da Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq birgə məlumat yayıb.

APA-nın xəbərinə görə, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə məlumatında bildirilir ki, "Bakcell LTD" MMC-də əsas şəbəkə üzrə baş mühəndis vəzifəsində işləyən Şahin İsrayılov, "Azerfon" MMC-də "Zənglər mərkəzi"ndə operator vəzifəsində işləyən Fuad Əhmədli, "Azercell Telecom" MMC-nin müştəri xidmətində operator vəzifəsində işləyən Etibar Musayev ölkə ərazisində mobil rabitə xidmətləri göstərən həmin şirkətlərdə işə başladıqları vaxtdan 18 avqust 2016-cı ilədək olan müddət ərzində öz qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməklə Vüqar Qasımovun və digər şəxslərin müraciətləri əsasında qanunsuz olaraq mütəmadi surətdə həmin mobil operatorların çoxsaylı abunəçilərinə dair fərdi məlumatları, o cümlədən abunəçilərin anket məlumatlarını, zəng tarixçələrindən çıxarışları, antenalar üzrə vətəndaşların olduqları yerlər və yerdəyişmələri və sair qapalı məlumatları çıxararaq, SMS yazışmaları və müxtəlif gizli üsullarla Vüqar Qasımova və digər şəxslərə ötürdükləri, fiziki və hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə mühüm zərər vurduqları müəyyən edilib.

Fakt üzrə Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 302.1 (əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma) və 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanılıb.

İsrayılov Şahin İsrayıl oğlu, Əhmədli Fuad Zəfər oğlu, Musayev Etibar İmamqulu oğlu və Qasımov Vüqar Şəmistan oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Onların yaşadığı ünvanlarda keçirilmiş baxış zamanı qanunsuz fəaliyyətlərinə dəlalət edən maddi sübutlar aşkar edilərək götürülüb. Az?rbaycan Xalq Cəbhəsi Partiyasının Xətai rayon Gənclər təşkilatının sədri olduğu müəyyən edilmiş Fuad Əhmədlinin yaşadığı ünvana keçirilmiş baxış zamanı ona məxsus əşyaların arasında qanunvericiliklə qadağan edilmiş dini ədəbiyyat və CD disklər, Fətullah Gülənin çıxışları olan vərəqələr, "Gülən camaatı" adlandırılan qrupun üzvləri, "Hizmət imam"ları adlandırılan şəxslər və onların qarşılıqlı əlaqələrinə dair sənədlər, Vüqar Qasımovun yaşadığı ünvana keçirilmiş baxış zamanı ona məxsus əşyaların arasında çoxsaylı Azərbaycan Respublikası vətəndaşlarının şəxsi sənədlərinin surətləri, onun adına rəsmiləşdirilmiş xeyli sayda mobil telefon nömrələri və qanunsuz fəaliyyətinə aid digər əşyalar aşkar edilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Gülən tərəfdarlarının siyasi çevrədə də axtarılması müxtəlif fikirlərin meydana çıxmasına səbəb olub. Demokratik düşərgəyə daxil olan şəxslər hökumətin Gülən məsələsini bəhanə edib, siyasi opponentlərini həbs etdiklərini iddia edirlər. Qarşıdakı günlərdə də bu prosesin davam edəcəyi istisna olunmur. Hüquq müdafiəçilərinin hazırda cərəyan edən bu proseslərdə susqun görünmələri bəzi suallar yaradır. Onların gülənçi adı ilə həbs olunan müxalifətçiləri müdafiə edib-etməyəcəkləri sual doğurur.

"Yeni Müsavat"a açıqlamasında hüquq müdafiəçisi Səadət Bənəniyarlı prosesləri yaxından izlədiklərini bildirdi: "Gedən prosesləri diqqətlə izləyirik. Bu barədə indidən nəsə demək çox çətindir. Çalışırıq ki, bu şəxslərin doğrudan da gülənçi olub-olmadıqlarını, bunun qanunvericiliyimizə zidd olub-olmamasını, eləcə də, həbs edilərkən onlarla olan davranışları araşdıraq. Hüquqların pozulduğu üzə çıxarsa, bu barədə rahat danışmaq mümkündür. Hələ ki, ümumi fikirlər deyilir. Azərbaycanda kimlərin gülənçi olduğu dəqiq deyil".

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016

# "Azərbaycanda daha güclü çevriliş olacaqdı"

## Hacı Əbdül: "Vəhhabilər qılıncla baş kəsir, nurçular pambıqla"



**Hazırda türk və İslam dünyasını təhdid edən ən böyük təhlükə radikal dini cərəyanların yayılmasıdır. Türkiyədə və digər müsəlman ölkələrində baş verənlər də bunun sübutudur. Azərbaycanda müxtəlif dini cərəyanların yayılmasını hər zaman tənqid edənlərdən biri də İmam Hüseyn məscidinin axundu, "Tövbə" cəmiyyətinin sədri Hacı Əbdül Əbdülovdur. "Yeni Müsavat"ın əməkdaşı onun rəhbəri olduğu cəmiyyətin fəaliyyəti, Türkiyədə baş verən hadisələr, Azərbaycanı təhdid edən dini cərəyanlar və digər mövzularla bağlı Hacı Əbdülün fikirlərini öyrənməyə çalışıb.**

***- Hacı, ilk növbədə "Tövbə" cəmiyyəti haqqında danışmağınızı istərdim. Bu cəmiyyət nə zaman yarandı, nə məqsədlə yaratdınız?***

- Bismillahir-rəhmanir-rəhim. "Tövbə" cəmiyyəti sovet dövründə 1985-ci ildə yarandı. Yaranma səbəblərindən biri o idi ki, mənim yaşadığım mühit, "Sovetski"də - dağlı məhəlləsində cavanların əksəriyyəti narkotiklə, şərabxorluqla, başqa pis əməllərlə məşğul idilər. "Tövbə" cəmiyyəti də bu səbəbdən yarandı ki, biz həmin cavanları düz yola çəkək. Gəncləri narkotikdən, şərabxorluqdan, pis yollardan uzaqlaşdıraq. O məqsədlə yarandı və bu günə qədər də davam edir."Tövbə" cəmiyyəti bütün SSRİ məkanında, Moskvanın özündə, Rusiyanın bütün şəhərlərində, Tatarıstanda, Dağıstanda da yayıldı. Hətta Tatarıstanda və Dağıstanda böyük tövbə məscidi tikildi.

***- Tövbə etmənin ritualları nələrdən ibarətdir? Necə tövbə edirlər?***

- Bizim tövbənin 5 əsas şərti var, o şərtlərə əməl edənlər "Tövbə" cəmiyyətinin üzvü olur. Onu birinci and mərasimindən keçirdirik. Beş şərtin birincisi narkotik maddələrdən tövbə etmək, ikincisi hər cür spirtli içkilərdən tövbə etmək, üçüncüsü millət ixtilafı salmamaq, dördüncüsü təriqət ixtilafı salmamaq, beşincisi etnik qrup ixtilafı salmamaqdır.

***- Əvvəllər daha çox idi tövbə etməyə gələnlər, yoxsa indi?***

- Sovet dövründə daha çox gəlirdilər. İndi də gəlirlər. Ancaq dəhşətlisi odur ki, cavan qızlar, cavan gəlinlər gəlir. Əsasən narkotikdən tövbə edirlər.

***- Narkotik asılılıq yaradır, hətta bəziləri müalicə alsa da, imtina edə bilmir. Tövbə ilə imtina etmək necə mümkün olur?***

- Qoy bunu əvvəlindən danışım. Bizim bu məsciddə böyük bir idman zalımız var idi . Mən özüm də sərbəst güləş üzrə məşqçiyəm . Vaxtilə Azərbaycanın güləş komandasının məşqçisi olmuşam. O vaxt bizim idman zalımız var idi və sovet hökuməti idmanla bağlı nə lazım idisə, bizə verirdi. İdman zalının yanında da hamamı var idi. Həm də digər tərəfdə cərgə ilə otaqlar var idi, indi sökülüb. Tövbə etməyə gələnləri mən burada saxlayırdım, bir-iki ay burada yatırdı. Yeyib-içirdi, həm də hər gün məşq edirdi. Narkotik təbi gələndə o adamlar zalda olurdu. Məşq etməklə onun təbini sındırırdıq. Ondan sonra daha onun narkotikə ehtiyacı qalmırdı. Elə olurdu 20-30 nəfər cavan qalırdı. Sonra mən özüm çatdıra bilmədim, ayrıca məşqçi tutdum. O məşqçi ilə həftədə 3 dəfə məşq aparırdıq. Biz bu işi xırdalıqlarına qədər bilirdik ki, narkotiki nə ilə əvəz etmək olar. Biz ondan bir şeyi alanda, başqa şey verməliydik. Görürdük təbi gəlir, adam döz bilmir,

## "İndi tövbə etməyə daha çox cavan qızlar, gəlinlər gəlir"



aparırdıq zala. Orada onu məşq edirdilər, onu sıxırdılar, məşq edirdilər, təbi gedirdi.

***- Əsasən, hansı günahlara görə gəlirlər?***

- Narkotik də var, oğurluq da var, fırıldaq da var. Gəlib deyirlər ki, biz artıq tövbə etmək istəyirik. Mən də onları tövbədən keçirdirəm. Əgər 1985-ci ildən buyana tövbə edənlərin hamısı tövbəsində qalsaydı, onda cəmiyyət nə gözəl olardı.... Ancaq təəssüf ki, tövbəni pozanlar da olur. Ancaq burada bir üstünlük də var ki, tövbə edən o tövbənin ləzzətini görəndən sonra, bir neçə aydan sonra ayılır, dünyaya başqa cür baxır. Sonra yenidən tövbəsini pozursa, tezliklə qayıdır yenidən tövbə edir.

***- Bu cür tövbə daha çox xristianlıqda var. Keşişin yanına gedib günahları etiraf edirsən, o da bağışlayır... İslamda bu cür tövbə ritualları varmı? Fərqi nədir?***

- Xristianlarda əsas olan etiraf etməkdir. İnsan günahını etiraf edir ki, mən filan əməli törətmişəm. Bizdə etiraf yoxdur. Gəlir və tövbə edir. Mən heç soruşmuram ki, sən nədən tövbə edirsən. Bizə əsas tövbə lazımdır. Biz həm də sonrakı mərhələdə düz yolu göstəririk. Ona görə, onlardan fərqimiz çoxdur.

***- Tövbə etmək istəyən hansı addımlardan keçir?***

- Qoy bunu da əvvəlindən danışım. Əvvəllər bu məscid yox idi. Yasamalda bizim hamam var idi. O hamamın rəhbəri də tövbə etmişdi, cəmiyyətin üzvü idi. Oranın işçiləri də tövbə edib bizim üzvlərimiz olmuşdular. Biz tövbə etməyə gələnləri birinci hamama aparırdıq, özü də pulsuz. Orada hamamda çimdirirdik, qüsl aldırırdıq və duşun altında ona "Tövbə" surəsinin 7-8-ci ayələrini oxuyurduq.

## "Televiziyalar dinin üzünə bağlanıb"

***- Bu ayini siz fikirləşmişdiniz?***

- Bəli, bunu özümüz fikirləşmişdik. Əlimizi qoyurduq tövbəkarın çiyninə və "Tövbə" surəsinin 7-8-ci ayələrini oxuyurduq. Bununla da adam tövbə etmiş olurdu. Bu məscid yaranandan sonra yenə aparırdıq, qüsl, dəstəmaz alırdı, gəlib məsciddə oturcourdu, əlini qoyurdu Qurana və and içirdi. Bunu da özüm fikirləşmişəm. And içirdi ki, mən bir daha filan günah əməllərlə məşğul olmayacağam.

***- Amma mən eşitdim ki, tövbə etməyə gələnlərə şallaq da vurursunuz. Bu doğrudurmu? Məqsəd nədir?***

- Biz tövbəyə gələnlərə şallaq vurmarıq, onları əzizləyirik. Şallaq tövbə edib, tövbəsini pozub, yenidən tövbə etməyə gələnlərə vurulur. Bu da simvolik bir şeydir. Vurulanda isə həqiqətən vurulur.

***- İnsanlar buna könüllü razı olurlarmı?***

- İnsanlar bir dəfə tövbə edib onun gözəlliyini görür. Yenidən tövbəyə gələndə biz soruşuruq ki, tövbəni pozsan şallaq vurulacaq. Deyirlər ki, razıyıq. Yazırıq 0, 1, 2, 3, birini çəkir. Hansı düşsə, o qədər vurulur.

***- Həmin insanlara dini , namazı da öyrədirdiniz?***

- Təbii ki, biz onu dinə dəvət edirdik. İlk addım o idi ki, pis əməllərdən çəkinsin. Çəkinəndən sonra ikinci addım ibadətdir.

***- Hacı, digər bir sualım Türkiyədə baş verən hadisələrlə bağlı olacaq. Siz İslamda təfriqəçiliyin ən böyük əleyhdarlarından birisiniz. Əvvəllər İslamda şiə və sünni təriqətləri var idi. İndi dini cərəyanlar artıb, nurçu var, gülənçi var, vəhhabi var və sair. Bunu təhlükə olaraq görürsünüzmü?***

- Mən neçə il öncə qəzetlərdə müsahibələrimdə də bu təhlükəni demişəm. Vəhhabilərlə bağlı mənim kitablarım da çıxıb. Həmçinin nurçu təhlükəsindən də dəfələrlə danışmışam. Özü də mən onları belə adlandırırdım. Vəhhabilərlə nurçular eynidir, heç bir fərqi yoxdur. Sadəcə, vəhhabilər qılıncla baş kəsir, nurçular pambıqla. Yaşlılar bilər ki, Azərbaycanda bu vaxta qədər sünni-şiə söhbəti olmayıb. Məhərrəmlikdə sünni qardaşlarımız da bizimlə birgə matəm saxlayıblar, dərdimizə şərik olublar, toy eləməyiblər.

***- Nurçuların, gülənçilərin məhz maarifçilik yolu ilə, məktəblər vasitəsilə cəmiyyətə daxil olmasını necə dəyərləndirirsiniz?***

- Bu gün ən böyük problem odur ki, onlar imkanlı adamlardır. Xalqın vəziyyəti isə çox ağırdır, günü-gündən daha da ağırlaşır. Onlar xalqın bu ağır vəziyyətindən istifadə edib ustalıqla cəmiyyətə daxil oldular və daxil olurlar. Hələ 1985-86-cı illərdə mən Orta Asiyada "Tövbə" cəmiyyətini yaradanda, orada vəhhabilərlə rastlaşmışdım. Mən onları oradan tanıyırdım. Düşünürdüm ki, bunlar Azərbaycana gəlsə buranı yerlə-yeksan edərlər. Sən demə, bunların gəliş metodları başqa imiş. Bunlar elə-belə gəlmir, çox ustalıqla, heç hiss olunmadan gəlirlər. Bir də baxırsan ki, yuxarı başda oturublar. Bu gün bizim Türkiyədə təhsil alan, orada qulluq edən hərbçilərimizin 90 faizi nurçulardır. Hətta parlamentin özündə də, Prezident Administrasiyasında da nə qədər desən nurçu var. Onlar gizli deyillər, istədikləri qədər saxlana bilərlər, lakin son hadisələrdən sonra aşkara çıxdılar.

***- Hacı, Türkiyə hadisələrini necə dəyərləndirdiniz?***

- Allaha şükürlər olsun ki, Türkiyədə baş verən hadisələrin qarşısı alındı. Onun qarşısı alınmasa idi, Azərbaycanda da ondan daha güclü çevriliş olacaqdı. Onlar orada şəhidlər verməklə bizi də qorudular. O şəhidlərin hesabına bizim cavanlarımız salamat qaldı, Allah onlara rəhmət eləsin.

***- Siz Qafqaz Müsəlmanlar İdarəsinin, Şeyxin ən böyük tənqidçilərindən birisiniz. Bu gün QMİ-nin fəaliyyətini necə qiymətləndirirsiniz?***

- Azərbaycanda "din dövlətdən ayrıdır" siyasətini ortaya qoyub Qafqaz Müsəlmanlar İdarəsinin əl-qolunu bağlayıblar, imkan vermirlər ki, fəaliyyət göstərsin. Əvəzində "din dövlətdən ayrıdır" siyasəti ilə ölkədə radikal cərəyanlar, vəhhabilər, nurçular azad, rahat hərəkət edə bilirlər. Bu səlahiyyəti QMİ-yə vermiş olsaydılar, bəlkə də o bunun qarşısını alardı, ən azından cəhd edərdi. Ancaq səlahiyyəti yoxdur. Çünki din dövlətdən ayrıdır. Ancaq bu cərəyanlar din yolu ilə gəlmirlər, siyasət yolu ilə gəlirlər.

***- Yəni gerçək din yaxşı təbliğ olunsaydı, bu cərəyanlar cəmiyyətdə indiki kimi yer tuta bilməzdi. Bunumu demək istəyirsiniz?***

- Bəli. Bizdə gerçək dinin təbliğ olunması çox zəifdir. Televiziyalara imkan vermirlər, din alimlərinə yer ayırmırlar. Qəzetlə heç nə əldə etmək olmur, bu gün televiziya, kompüter əsridir. Bizdə isə onlar dinin üzünə bağlanıb. Din izahdır, açıqlamadır. Dini insanlara açıqlamalısan. Dövlət bunun qarşısını alıb.

***- Hacı, siz həm də idmançısınız və yəqin ki, Rio Olimpiya Oyunlarını da izləyirsiniz. Sizin üçün ən yadda qalan nə oldu bu olimpiyada?***

- Ən yadda qalan, məni ən çox təəssüfləndirən azərbaycanlının erməniyə uduzmağı oldu. Kaş heç medal almayaydı, ancaq ermənini məğlub edəydi.

***- Ancaq idmanda belə şeylər olur da... Bu idmandır.***

- İdmanda çox şey olur. Ancaq erməni ilə savaşmaq elə bir şeydir ki, sən burada idman təfəkküründən çıxırsan. Qarşındakı sənin düşmənindir. Yeri gəlmişkən, bizim dövlət idmana çox diqqət edir, ancaq xariciləri gətirmək hesabına... Pulu onlara xərcləyir. Birini Dağıstandan, birini Kubadan gətirir. Xarici idmançılar uğurlu yatırım deyil. Şəxsən mən bunu bəyənmirəm. Pulu məşqçilərə vermək lazımdır, öz uşaqlarımızı yetişdirmək lazımdır. Qoy bu il zəif olsun, ancaq sabah bu qələbə çalsa, biləcəksən ki səninkidir. Birisi gün çıxıb getməyəcək.

***- Hacı, məscidin vəziyyəti... divarlar uçub tökülür... Sizə dövlətdən maliyyə ayrılmırmı?***

- Qızım, bütün məktublar masamın üzərindədir. Prezident Administrasiyasına da yazmışam, icra hakimiyyətinə də... Hər yerə yazmışam ki, bu məscid açılan gündən bu günə qədər öz gücümüzə saxlamışıq.

***- Öz gücümüzə deyərkən...***

- Yəni nəzirlərin, imkanlı möminlərin hesabına. Onlar kömək ediblər, bir az saxlamışıq. Yoxsa çoxdan dağılıb gedərdi. Bu günə qədər heç bir nə dini qurum, nə dövlət qurumu gəlib demir ki, bu məscidə maliyyə lazımdır.

***- Neçə yaşı var məscidin?***

- Bu məscid "Təzəpir"dən 20 il qabaq tikilib, qədim məsciddir. Allaha şükürlər olsun ki, özümüz saxlayırıq.

***- Sizcə, bu məscidə belə münasibətin səbəbi nədir?***

- Səbəb bizim "Tövbə" cəmiyyətidir. Hökumət cəmiyyətə dəstək vermir. Elə bil həvəskarındadır ki, gənclər narkoman, içki düşkünü olsun. Ədliyyə Nazirliyi də sovet dövründə bizi qeydiyyata almırdı. Halbuki bizim cəmiyyət Moskvada qeydiyyatdan keçmişdi. Mən buradan başlayıb, SSRİ-nin əksər ölkələrində "Tövbə" cəmiyyətini qurmuşdum. İndi də münasibət belədir. Məscid təmirsiz vəziyyətdədir, ancaq bütün müraciətlərimizə baxmayaraq, bizə təmir üçün maliyyə ayrılmır.

**❑ Nərgiz LİFTİYEVA**
**Fotolar Xalidə Gərayındır**

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016



# Gülən kim, ağlayan kim...

Zamin HACI
zaminhaci@gmail.com

**“Bizim özünəməxsus sivilizasiyamızın ən kədərli özəlliklərindən biri odur ki, biz başqa xalqların, hətta bizdən də geridə qalan xalqların çoxdan köhnəltdiyi həqiqətləri indi yenidən kəşf edirik. Məsələ ondadır ki, biz heç vaxt başqa xalqlarla birgə getməmişik, biz bəşər nəslinin məlum olan heç bir tanınmış ailəsinin üzvü deyilik, nə Qərbə aidik, nə Şərqə, nə onun ənənələrini götürmüşük, nə bunun”.**

**(P.Çaadayev, “Fəlsəfi məktublar”, 1831-ci il)**

Bir satira var, bizim kimi avtoritar rejim ölkələrinin internetində populyardır: guya Oruell dirilir və deyir ki, mən əsəri fantaziya olaraq yazmışam, dövlət proqramı kimi yox, siz nə edirsiniz... Doğrudan da, Azərbaycan, Rusiya, Türkiyə, İran tipli dövlətlərin həyat tərzinə, gündəlik ictimai-siyasi davranışlarına baxanda fikirləşirsən bunlar Oruellin əsərlərini özlərinə konstitusiya olaraq seçiblər, o ölməz romanlara uyğun yaşamaq istəyirlər.

Örnək üçün, hazırda Azərbaycanda bir qrup müxalifətçini... Fətullah Gülənin tərəfdarı olmaq ittihamıyla tutublar, maşınlarından və evlərindən də onun kitablarını müsadirə ediblər. Əcaib bir hadisədir, hətta bizim ölkə üçün də təəccüblüdür, çünki Fətullah Gülənin kitablarını oxumağın, saxlamağın cinayət olmasını biz indiyə qədər bilmirdik. Dövlət bu müəllifi qanuni şəkildə qadağan etdiyini vətəndaşa çatdırmayıbdır, ümumən Ərdoğan xanın bəyanatlarında adını eşitdiyimiz “FETÖ” deyilən terror təşkilatının da varlığından xəbərsizik - bizim deputatxana bunu terror qurumu olaraq bəyan edən qanun qayırmayıbdır. Belə olan halda, Azərbaycan vətəndaşı hansısa dövlətdəki daxili çəkişmələrin, razborkaların qurbanı olursa, bəs müstəqil siyasət nağılını hara soxaq?

Tutaq ki, sabah Putin Lomonosov adına Moskva Dövlət Universitetinin rektorunu cinayətkar elan etdi, biz dəstək üçün oranı qurtaran yoldaşları dama salmalıyıqmı? Dövlətçilik məntiqimiz deyir ki, salmalıyıq. Bəs bədbəxt azərbaycanlılar sözün əsl mənasında başlarına haranın külünü töksünlər ki, sabah hökumət o külü eşələyəndə içindən bomba tapılmasın?

Dünənə qədər Gülən tərəfdarı olmaq elə yapistlərin özü üçün şərəf idi. “Çağ Öyrətim”in litseylərinin, universitetinin törənlərində başda otururdular, çıxış edirdilər, şəkil çəkdirirdilər. İnternet, media, dəftər-kitab səhifələri həmin informasiyalarla doludur. Bəs indi nə etməli? O materialları kim toplayıb təzədən çap etməlidir, orda “Fətullah Gülən Böyük Qardaşın dostudur” süjetini “Fətullah Lənətullah!” cümləsiylə əvəzləməlidir? Axı bizim, hər şeydən öncə, Həqiqət Nazirliyimiz yoxdur! Belə önəmli dövlət işlərini ASAN-xidmət könüllülərinə tapşırmaq olmaz axı. Ciddi struktur lazımdır.

Formal olaraq o kitabların “tapıldığı” şəxslərə dini, milli, irqi ayrıseçkilik salmaq maddəsiylə cinayət işləri açırlar, ancaq bu halda da məlum deyil hansı dini, hansı millətləri, hansı irqləri ayırmaqdan söhbət gedir. Ümumiyyətlə, bu “ayrıseçkilik” sözündən mənim xoşum gəldi - sanki bizdəki seçkilərin ayrı cür keçirildiyini bildirir. Yanlış da bir naxışdır bu qüssəli həyatımıza... Məzahir müəllim, ayrı seçkiliklə aranız necədir?

Hər gün Facebook şəbəkəsində araq badəsiylə fotolar paylaşan gəncləri dini fanatik, terror qurumuna qoşulmaq adıyla zindana salırlar. Ara qarışıb, məzhəb itib - mənzərə belədir. Bu isə dövlətçiliyin anarxizminə səbəb ola bilər. Kibritlə oynamaq kimi bir şeydir. Vəziyyəti elə qatıb-qarışdıracaqlar ki, sabah özləri üçün də aydın olmayacaq Azərbaycanda kim kimdir.

Çaadayevin epiqraf verdiyim sözləri Rusiya üçün yazılıb, ancaq elə indiki bizə də aiddir. Prinsipcə, o sözlərin yazıldığı vaxt da Azərbaycan Rusiyanın bir əyaləti idi.

# 15 iyul “darbe”sinin müttəfiqlərə qurduğu tənlik çözüm ərəfəsində

# Türkiyə-ABŞ münasibətlərində kritik həftə - Azərbaycan üçün də həyəcanlı dönəm

## Bu gün prezident Barak Obamanın ədliyyə generalları “Gülən işi” ilə bağlı ilk dəfə Ankaraya gəlir; səfərdən dərhal sonra vitse-prezident Bayden də Türkiyədə olacaq; Pensilvaniyadakı şəxslə bağlı verilən qərar Vaşinqton-Bakı əlaqələrinə də təsirsiz ötüşməyəcək...

**ABŞ-Türkiyə münasibətlərində qeyri-müəyyən və gərgin dönəm davam edir. Qardaş ölkədəki 15 iyul uğursuz hərbi çevriliş cəhdindən sonra Ankara ilə Vaşinqton arasında bitən “Gülən kolu” bu münasibətlərin ən aşağı səviyyəyə enməsinə gətirib. Aydın görünür ki, tərəflər ən əvvəl bu problemi çözməlidir ki, qarşılıqlı etimad əvvəlki səviyyəyə qayıda bilsin.**

Ötən həftə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bu mövzunu - Fətullah Gülənin ekstradisiyası məsələsini bir daha ABŞ-ın dövlət katibi Con Kerri ilə telefon danışığı zamanı müzakirə edib. Məlumata görə, onlar həmçinin Kerri və Birləşmiş Ştatların vitse-prezidenti Co Baydenin Türkiyəyə planlaşdırılan səfərini də müzakirə ediblər.

Bu gün isə Gülənin ekstradisiyası məsələsi ilə məşğul olan ABŞ-ın Ədliyyə Nazirliyinin yüksək səviyyəli nümayəndə heyəti Türkiyəyə təşrif buyuracaq. Avqustun 24-dək çəkəcək bu səfər çərçivəsində nümayəndə heyətinin Türkiyənin rəsmi şəxsləri ilə görüşləri nəzərdə tutulub.

Prezident Obamanın adını açıqlamayan nümayəndəsi “Blumberq” telekanalına açıqlamasında vitse-prezident Baydenin 24 avqustda planlaşdırılan səfərindən öncə nümayəndə heyətinin Ankarada ekstradisiya məsələsini müzakirə edəcəyini deyib (Axar.az). Analitiklərə görə, Obamanın nümayəndə heyətini Türkiyəyə göndərməsi Gülənin ekstradisiya tələbinə önəm verdiyini göstərir.

*****

Bu arada isə tərəflər arasında Gülən mövzusunda açıqlama və bəyanatlar mübadiləsi, bir az da əsəb müharibəsi davam etməkdədir. “Fətullah Gülənin ekstradisiyası qətiyyən siyasi məsələ deyil”. Belə bir açıqlama ilə ABŞ Dövlət Departamentinin sözçüsü Mark Toner çıxış edib. Onun sözlərinə görə, bu, iki dövlət arasındakı ekstradisiya anlaşması ilə bağlı olan bir prosesdir.

Başa düşüləndir. Bununla Amerika tərəfi əslində məsələnin siyasiləşməsinin tərəfdarı olmadığını ortaya qoyub, Türkiyə kimi mühüm və vazkeçilməz regional müttəfiqlə münasibətlərin krtik həddə çatmasından qaçmağa çalışır. Amma ABŞ rəsmiləri istəsə də, istəməsə də, sözsüz ki, məsələ həm də siyasidir. Çünki Türkiyədə 15 iyul “darbe girişimi”nin arxasında məhz ABŞ-ın durması haqda qardaş ölkə toplumunda, onun siyasi kəsimində daşlaşmış rəy var.

Doğrudur, son vaxtlar rəsmi Ankaranın siyasətində bu iddianı bir qədər yumşaltmaq və diqqəti daha çox F.Gülənin ekstradisiyasına yönəltmək istəyi müşahidə edilir ki, bu da anlaşılandır: Türkiyə xarici siyasətdə praqmatik kursa qayıtmaq məramı göstərir. Təsadüfi deyil ki, XİN başçısı Mövlud Çavuşoğlu ötən həftəsonu verdiyi bir açıqlamada “Türkiyədəki hərbi çevrilişə cəhdin arxasında ABŞ-ın dayandığını təsdiq edilməyib” ifadəsini də işlədib.

Lakin cənab Çavuşoğlu bunu da əlavə edib: “Bununla belə, rəsmi Ankara bəyan edir ki, hərbi çevrilişə cəhddə günahlandırılan Fətullah Gülənin ABŞ-dan Türkiyəyə ekstradisiya edilməməsi elə rəy formalaşdıra bilər ki, ABŞ hərbi çevrilişə cəhdin arxasında dayanır”. Nazir bir daha bildirir ki, Türkiyə əvvəl olduğu kimi, Fətullah Gülənin ABŞ-dan ekstradisiyasını tələb edir.

*****

Bəs ikitərəfli münasibətlərdə Gülən əngəli bu həftə aşıla bilərmi?

Böyük ehtimalla, məhz ABŞ “ədliyyə generalları”nın Türkiyə səfəri məsələyə xeyli dərəcədə aydınlıq gətirəcək, hətta nöqtə qoyacaq. Səfərdən dərhal sonra vitse-prezident Baydenin Ankaraya səfərinin planlaşdırılması bu qənaəti gücləndirir. Çünki siyasi ekspertlərə görə, həmin səfərlərdə əsas müzakirə mövzusu məhz Gülənin ekstradisiyası olacaq.

Bir sözlə, Türkiyə-ABŞ münasibətlərində kritik bir həftə başlayır. Ağ Evin Gülənlə bağlı qərarı isə sözsüz ki, onun Azərbaycanla əlaqələrinə də təsirsiz ötüşməyəcək. Çünki ABŞ-Türkiyə münasibətləri ölkəmiz də daxil, böyük bir regionun siyasi aqibətinə təsir edəcək gücdə olan mühüm faktordur. Başqa yandan, Azərbaycan öz xarici siyasət kursunda istər-istəməz qardaş ölkənin - əsas təbii müttəfiqinin siyasi qayğılarını və gözləntilərini də ciddiyə almalı olur.

*****

Bu arada F. Gülən bu gündən etibarən onun taleyi ilə bağlı başlayacaq Ankara-Vaşinqton kritik danışıqlarından söz açaraq bildirib ki, ABŞ Türkiyənin təqdim elədiyi materiallarda onun ekstradisiyası üçün qanuni əsaslar tapmayacaq. Bu barədə qazeta.ru “əl-Arabiya” telekanalına istinadən xəbər yayıb.

“Düşünmürəm ki, Amerika yanlış qərar verəcək və bununla da özünü beynəlxalq birliyin qınağına tuş edəcək. Bu, yalnız o halda mümkün ola bilər ki, Amerika quru iddialarla aldadılsın. Türkiyə artıq mənim həbsimlə bağlı sifariş göndərib, ancaq ABŞ məhkəməsi bunu rədd edib - əgər öz mənbələrimə inansam”.

Ancaq iş ondadır ki, “Gülən işi” nə qədər hüquqi prosedura kimi təqdim edilsə də, artıq vurğulandığı kimi, həm də siyasiləşib. Ayrı sözlə, Ankara və Vaşinqton arasında Gülən müəyyən mərhələdə siyasi bazarlıq predmeti də ola bilər. Olacaqmı, yoxsa Ağ Ev öz milli maraqlarını artıq təhlükəli planları de-şifrə olmuş bir şəxsin maraqlarına qurban verəcək?

Hər necə olmasa, qarşıdakı bir həftə əsas suala aydınlıq gətirməlidir.

❑ **Siyasət şöbəsi**



## “Bu olmasa, ABŞ-la əlaqələr bitəcək” - Kılıçdaroğlu

**“Dövlət çevrilişinə cəhdin başında Fətullah Gülənin olduğu deyilir. O zaman Türkiyəyə ekstradisiya edilməsi lazımdır”. Axar.az xəbər verir ki, bu açıqlama ilə Türkiyənin CHP lideri Kamal Kılıçdaroğlu çıxış edib.**

Kılıçdaroğlu Gülənin Türkiyəyə təhvil verilməycəyi təqdirdə, ABŞ-la əlaqələrin qırılma nöqtəsi olacağını bildirib: “ABŞ öz hüquq sistemi çərçivəsində bunu Türkiyəyə təslim etməlidir. Əgər ABŞ vermirsə, Fətullah Gülən özü Türkiyəyə gəlməlidir. Deyirsən ki, günahsızam. O zaman gəl Türkiyəyə ittiham olun. Ümid edirəm ki, əlaqələrin kəsilməsinə ABŞ izin verməyəcək”.



# Rusiya Ermənistanla ortaq ordunu kimə qarşı yaradır?

**Hərbi ekspert xəbərdarlıq edir:** "Azərbaycan və Türkiyə buna ciddi reaksiya verməli, Moskvanı bu işdən çəkindirməyə çalışmalıdır..."

**"Rossiyskaya qazeta" Rusiya müdafiə nazirinin müavini Anatoli Antonova istinadən yazıb ki, Rusiya və Ermənistan birləşmiş qoşun qruplaşmasının yaradılmasına dair sazişin imzalanmasına çox yaxındırlar. Qəzet bu hadisəni "kiçik sensasiya" adlandırıb. Qəzetin yazdığına görə, müdafiə nazirinin müavini Anatioli Antonov deyib ki, bu barədə saziş mətninin üzərində iş gedir.**

Nəşr qeyd edir ki, hərbçilər saziş layihəsinin detallarını məxfi saxlayırlar və vahid qoşun birləşməsinə hansı qoşun növlərinin daxil olacağı məlum deyil. Lakin bəzi məlumatlara görə, yeni qoşun birləşməsi Ermənistan ərazisində dislokasiya olunacaq və ona Ermənistan Silahlı Qüvvələrinin 4-cü ordu korpusu və Rusiyanın 102 nömrəli hərbi bazası daxil olacaq.

"Azadlıq.org"un xəbərinə görə, hələ ötən ayın axırlarında noteru.com adlı sayt sözü gedən birgə qoşun qruplaşması məsələsindən yazmışdı. Həmin yazısına Boris Terexov adlı jurnalist "Putin Azərbayacan atıb" başlığı qoymuşdu. Terexov yazırdı ki, ötən apreldə Azərbaycanın Dağlıq Qarabağ üzərində nəzarəti bərpa etmək cəhdindən sonra Moskva özünün bu münaqişəyə münasibətini dəyişib. Onun iddiasına görə, buna bir səbəb də münaqişəyə üçüncü tərəflərin "burun soxması" olub. Terexovun bloqunda deyilirdi ki, "belə insidentlərin" baş verməməsi üçün Moskva "yalnız alqışlana biləcək çox orjinal bir gediş" edib - Rusiya Federasiyası Silahlı Qüvvələrinin baş qərargahı təzliklə vahid Rusiya-Ermənistan hərbi qruplaşmasının yaradılacağını bəyan edib.

Terexov yazıb ki, Ermənistandan verilən məlumatlara görə, vahid qoşun birləşməsinə general Andranik Markaryan komandanlıq edəcək. Müəllifə görə, bu gün Ermənistan ərazisində Rusiyanın üç tam gücə malik motoatıcı polku, 1 özüyeriyən artilleriya polku, tank batalyonu, Qrad və Smerç zenit sistemlərinin bir neçə divizionu, Erebuni hərbi hava bazasında bir neçə qırıcı və helikopter eskadriliyaları, S-300 və Buk sistemləri ilə təchiz edilmiş ayrıca zenit-raket diviziyaları var.

Qeyd edək ki, general Andranik Markaryan Azərbaycana qarşı sərt mövqeyi ilə tanınan erməni generallardan biridir. Bir müddət əvvəl Rusiya və Ermənistan birgə hava hücumundan müdafiə sistemi barədə saziş imzalayıb və Ermənistan parlamenti artıq sazişi ratifikasiya edib. Bu sazişin ardınca indi də birləşmiş qoşun qruplaşması yaradılmasına hazırlıq gedir.

Hərbi ekspert Üzeyir Cəfərov hesab edir ki, Rusiyanın bu addımı başadüşülən deyil və əslində gələcəkdə Ermənistanın Azərbaycana qarşı istifadəsi üçün imkan yaradacaq: "Rusiyanın 102-ci hərbi bazası ən müasir silahlarla, texnika ilə təmin olunub. Ermənistanın hansısa bir korpusu ilə birgə hərbi birləşmə yaratmaq əslində Rusiyadan çox, Ermənistana lazımdır və sərf edir. Təəssüf ki, Rusiya da işğalçı Ermənistana bu dəstəyi də verir. ATƏT-in Minsk qrupunun həmsədri olan Rusiyanın münaqişə tərəflərindən biri ilə birgə hərbi birləşmə yaradır və həmin birləşməyə də erməni generalı komandir təyin edirsə, Azərbaycan Xarici İşlər Nazirliyi, rəsmi Bakı buna ciddi reaksiya verməli, Moskvaya etirazını bildirməlidir. Unutmaq olmaz ki, gələcəkdə Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatlar başlayanda Ermənistan Rusiya ilə yaratdığı birgə hərbi birləşmədən də istifadə edə bilər. Birgə hərbi birləşmənin yaradılması işğalçı erməni silahlı qüvvələrinə əlavə dəstəkdir. Sabah həmin erməni general Markaryan çox rahat şəkildə birgə hərbi birləşmənin Rusiyadan olan peşəkar hərbi mütəxəssislərindən, tankçılarından, topçularından Azərbaycana qarşı istifadə edəcək".



Hərbi ekspert onu da dedi ki, Azərbaycan gələcəkdə Qarabağın azad olunması üçün antiterror əməliyyatları keçirərkən erməni generalın komandirlik etdiyi Rusiya-Ermənistan birgə hərbi birləşməsinin hərbçiləri və hərbi texnikası ilə üz-üzə qala bilərik: "Heç kim belə olmayacağına təminat verə bilməz. Nəzərə alsaq ki, 102-ci Rusiya diviziyası ilə Ermənistanın 4-cü korpusunun şəxsi heyətinin sayı bir neçə mindir bu, artıq çox ciddi güc deməkdir və qüvvələr balansının dəyişməsinə səbəb ola bilər. Birgə hərbi birləşmə yaradılması ola bilsin ki, yaxın gələcəkdə Qarabağda hərbi əməliyyatlarda rus hərbçilərinin görünməsinə, rus əsgəri ələ keçəcəyi, döyüş meydanında cəsədi qalacağı halda buna izahat, hüquqi əsas yaratmaq üçündür. Belə hallar ortaya çıxanda Rusiyadan izahat veriləcək ki, həmin rus əsgər birgə hərbi birləşmənin əsgəridir, əsgərin oraya getməsi qərarını erməni komandiri verib, biz lazım olan araşdırmanı aparacağıq və tədbir görəcəyik. Birgə yaradılacaq hərbi birləşməyə rus yox, məhz erməni generalın komandir gətiriləcəyi də təsadüfi deyil".

Ü.Cəfərov Azərbaycan və Türkiyə rəhbərliyinin nə qədər gec deyil sözügedən məsələ ilə bağlı Rusiyaya narazılığını bildirməsinin və Moskvanı regionda gərginlik yaradacaq addımdan çəkindirməsinin vacibliyini vurğuladı: "Rusiya bir tərəfdən üzdə Türkiyə ilə Azərbaycanla yaxınlaşır, o biri tərəfdən isə Ermənistanı işğalçılığa həvəsləndirən addımlar atır. Türkiyə və Azərbaycan rəhbərliyi Rusiyanın Ermənistanla birgə hərbi birləşmə yaratmaq məsələsinə ciddi reaksiya verməli və Moskvanı bu işdən çəkindirməyə çalışmalıdır. Birgə hərbi birləşmə məsələsinin üzərindən sükutla keçmək olmaz. Çünki bu məsələnin reallaşması gələcəkdə bizim üçün böyük təhdidlər, təhlükələr vəd edir. Birgə hərbi birləşmə regiona əlavə gərginlik gətirəcək".

❑ **Etibar SEYİDAĞA**

# Putin ətrafını təmizləyir - hədəfdə Medvedyevdir?

## Seçkilər öncəsi Rusiya prezidentini buna vadar edən səbəblər var; kadr dəyişiklikləri davam edəcək

**Rusiya prezidenti Vladimir Putinin özünə yaxın yüksək vəzifəli şəxsləri postlarından azad etməsi bəzi suallar yaradır. Avqustun 12-də gözlənilməz halda Putin Kreml Administrasiyasının rəhbəri Sergey İvanovu istefaya göndərdi ki, general onun yaxın kadrlarından hesab olunurdu.**

Putin İvanovu vəzifəsindən azad etdiyi gün Dövlət Təhlükəsizlik Şurasının tərkibini də yeniləyib. Eyni zamanda, federal dairələr üzrə də kadr dəyişiklikləri apararaq, özünə yaxın hesab etdiyi şəxsləri səlahiyyətli nümayəndələr təyin edib.

İndi də baş nazir Dmitri Medvedyevin vəzifəsini itirəcəyi barədə xəbərlər yayılıb. Doğrudur, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov yayılan xəbərləri təkzib etdi. Amma bu, xəbərin gündəmdən düşməsinə səbəb olmadı.

Rusiya prezidentinin gələn ay keçiriləcək parlament seçkiləri öncəsi belə ciddi qərarlar qəbul etməsi müəmmalara yol açıb.

Politoloq Qabil Hüseynli hesab edir ki, Putinin ətrafında sovet dövründən qalma sosial tədqiqat institutları var və bu cəmiyyət arasında sosial qarşıdurmaların olacağını proqnozlaşdıra bilirlər: "Putin Rusiya cəmiyyətinin bugünkü ovqatını dəqiq bilir. Anlayır ki, əhali yoxsullaşmadan, yeridilən siyasətdən narazıdır. Putin reytinqinin aşağı düşməsi barədə yox, ölkənin pis idarə olunması fikirlərinə qərq olub. Yaxınlarda polis şöbəsinə basqın edildi və ölənlər oldu. Bu, onu göstərir ki, cəmiyyət qaynamağa başlayıb. Bunun partlayışa səbəb olacağını Putinə yaxın institutlar bilməmiş deyillər. Bundan vəzifəsindən azad olunan İvanov daha yaxşı xəbərdar idi. Çünki həmin məlumatları ilk dəfə alan o idi. Putinin qulağı yaxşı sözlər eşitməyə öyrəşib. Diskomfort yaradan fikirləri o sevmir. Birbaşa onun üzünə ölkənin real mənzərəsini deyən, keçmiş KQB-çi İvanov çox güman ki, Putinlə ölkənin mövcud durumu barədə fikir ayrılığına gəliblər. Rusiyanın bəzi mətbuat orqanlarının yazdığına görə, bu fikir ayrılığı və İvanovun təklifləri Putinin xoşuna gəlməyib, nəticədə onların yolları ayrılıb. Düzdür, hazırda İvanov komandada qalır. Amma ona elə bir iş veriblər ki, kabinetin qapısını açıb-bağlamaqla məşğuldur. Rusiyanın mövcud vəziyyətində məsuliyyət daşıyan şəxslərdən birincisi Putindirsə, ikincisi də baş nazirdir. Medvedyev isə uzun müddətdir ciddi tənqid atəşinə tutulur. Rus mətbuatı və televiziyasına baxanda o qənaətə gəlmək olur ki, bu tənqidlər hansısa mərkəzdən idarə olunur. Sanki bu baş nazirin özünü istefa verməyə yönəltmək xarakteri daşıyır. Moskvada sorğu keçirdilər və orada da Medvedyev barəsində ürəkaçan nəticə çıxmadı. Müdafiə Nazirliyində 3-5 general işdən çıxarılır, amma bu geniş rezonans doğurmur. Amma İvanovun vəzifəsindən uzaqlaşdırılması geniş müzakirələr yaradıb. Putin qurbanlarını verərkən, elə zənn edirdi ki, "günah keçisi"ni tapıb və bunlar cəmiyyətdə yüksək ovqat yaradacaq. Amma aparılan sorğular onu göstərir ki, İvanovun çıxarılmasından narazı qalanlar daha çoxdur. Bu Medvedyevin işini bir qədər asanlaşdırıb. Amma seçkilər ərəfəsində əsas qurban veriləcək şəxslərdən biri odur. Çünki Putin ölkənin idarə olunmasında, düşülən mövcud vəziyyətdə birbaşa onu günahlandırır. Düşünürəm ki, seçkilərə bir müddət qalmış Putin baş naziri vəzifəsindən uzaqlaşdırmalı, günahları onun üstünə yıxmalı və ölkədəki problemlərə səbəb kimi Nazirlər Kabinetinin idarəçiliyini göstərməlidir. Nəticədə bir çox nazirlər vəzifəsini itirəcək. Bu yolla reytinqini qaldıra bilər".



Politoloq kadr dəyişikliklərinin Rusiyada iqtisadi böhranın qarşısını ala bilməyəcəyini düşünür: "Bahalaşma davam edəcək. Çünki sosial tədbirlər üçün tələb olunan maliyyə yoxdur. Ölkənin milli sərvətlərindən gələn gəlir qənaətbəxş deyil. Zəif idarəçilik bunun qarşısını ala bilmir. Seçkilər keçiriləcək və onlar da seçki texnologiyasını yaxşı mənimsəyiblər. Ona görə də seçkilərdən çıxacaqlar. Amma problemlər qalmaqda davam edir. Rusiya dünyada təklənmiş hala gəlib. Əvvəllər xalq hesab edirdi ki, Putin Rusiyanın itmiş nüfuzunu bərpa etməklə məşğuldur. Amma praktika göstərdi ki, onun siyasəti Rusiyanın nüfuzunu artırmayıb. Bu baxımdan yaxın vaxtlarda Rusiyada sürətlə komanda dəyişikliyinin aparılacağını ehtimal etmək olar. Putin reytinqini qaldırmaq istəyir. Krımı aldı və buna nail oldu. Donbasda vəziyyəti gərginləşdirdi və bu da onun nüfuzunun artmasına səbəb oldu. Gürcüstana hücum da bu qəbildən idi. Növbədə Suriyadır. Bunun üçün plan qurulub ki, burada Türkiyənin də adı keçir. Bu plan həyata keçsə, Suriyanın daşı daş üstündə qalmayacaq. Nəticədə Rusiyada sabitlik yarana bilər. Bu da Rusiyanın Amerika üzərində qələbəsi kimi qəbul oluna bilər. Bunların hesabına əldə olunmuş nailiyyəti Putin bir müddət xərcləmək imkanı qazanar".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016

# "Mən də bu sənətin "vor zakon"uyam

## Aşıq Namiq: "Sənətdən uzaqlaşmadığı üçün nişanlımdan ayrıldım"

**Aşıq Namiq Fərhadoğlu ilə şəhər restoranlarının birində bir araya gəldik. Musavat.com saytının suallarına cavab verən aşıq ilə söhbətə sazla ifa etdiyi "Məsti-xumar" mahnısına çəkdirdiyi və bir neçə gün öncə təqdim etdiyi klipdən başladıq:**



***- Bir neçə gün öncə yeni klipinizi təqdim etdiniz. Heç bir aşığın dəniz kənarında, şort geyinmiş qızla çəkilmiş klipi olmayıb. Sizə qarşı reaksiyalar necə oldu? Tənqid edənlərin sayı çox idi?***

- Mən kimlərinsə tənqidini vecimə alan deyiləm. Başqalarına qulaq assaydım, bu qədər şan-şöhrətim olmazdı. Arxamda dayanan daydayım, sponsorum yoxdur. Öz gücümə akulaların içində at oynadıram. Paxıllığımı çəkən adamlar məni aşıq Ədalətlə, rəqqasə Aytənlə vurmaq istədilər, amma bacara bilmədilər. Qurban olduğum Allah mənə elə istedad verib ki, 50 nəfər üstümə gəlsə, dil bacarığım və düzgünlüyüm ilə qalib gələrəm. Bir adamı Allah istəyirsə, onu heç kim yıxa bilməz. Klipə gəldikdə isə, "Məsti-xumar"-ı ifa edəndə hamıya qəribə gəlmişdi. Düşünürəm ki, hər yaşa xitab etmək lazımdır. Gənclər toylarda "Ruhani göndərməsi", "Yanıq Kərəm" mahnılarını istəyir. Müasir dövrlə ayaqlaşmaq lazımdır. Könül xanım, sizin toyunuzda məndən "Tovuzum" mahnısını istədilər, sazda çaldım. Onu hər aşıq ifa edə bilməz. Harasa gedəndə insanlar mənimlə görüşür. Bunun səbəbi maqazin verilişlərində çıxış etməyim, müasir mahnıları da sazda ifa edə bilməyimdir. Saz türkün türklüyünü bildirən alətdir. İnsanlar bilməlidir ki, sazla bir çox mahnıları ifa etmək mümkündür, sazın imkanları genişdir. Sazı dünyada tanıtmaq lazımdır. Üzeyir Hacıbəyli "Koroğlu" uvertürasını yazanda deyib ki, saz bütün ansambla əvəz olan alətdir. Dəniz kənarında saz çalmaq qəbahət deyil. Dəniz qırağında o qədər saz çalanlar var, sadəcə mən aşkar göstərdim. Klipdə xanım şort geyinib, dəniz kənarında xalat geyinməli idi? Klip tam müasir üslubda çəkilib. Tənqidlərdən də çəkinmirəm. Məni qalmaqala çəkənlər olub, amma mən bu cür şeyləri sevmirəm. Sənətimlə, konsertlərlə gündəmdə qalmaq istəyirəm. Evi, maşını ilə öyünən adam deyiləm.

***- Sizin sazda ifanızın sədaları altında rəqqasə Aytən göbək rəqsi etdiyi üçün aşıq Ədalət əsəblərinə hakim ola bilməyərək rəqqasəni təhqir etmişdi. Siz aşıqla görüşdünüz, Aytən əvvəl polisə müraciət etsə də, sonra fikrini dəyişdi. Hazırda aşıq Ədalətlə münasibətləriniz necədir?***

- Orada qalmaqal yox idi. Aşıq Ədalət sazın Dədə Qorqududur, bizim əzizimizdir. O mənim, atamın, babamın kim olduğunu bilir. Hər zaman onun qulluğunda durmuşam. Konsertlərimdə Aşıq İsfəndiyar ilə onu başda otuzdurmuşam. Aşıq Ədalət yaltaq adamları sevmir, həmişə mənə deyir ki, onun cavanlığıyam. Atasının, sponsorunun, hesabına efirə çıxan aşıqlar məni aşıq Ədalətlə "vurmaq", ləkələmək istədilər, amma alınmadı. Mən o söhbəti eşidəndən sonra Ədalət bəyin evinə getdim. Dedi ki, məni təhqir etsə, dili quruyar. Özü də mətbuata açıqlama verdi. O, səhv hərəkət edib Aytəni təhqir etmişdi. Aytən rəqs edəndə aşıqlar o məclisdə idi, xoşlarına gəlməsəydi, durub məclisdən çıxardılar.

***- Qanuni-oğru Rövşən Lənkəranskinin ölümündən sonra sənətçilər onun haqda fikirlərini bölüşüb. Nadir Qafarzadə sosial şəbəkədə yazıb ki, kaş, o ölərdi. Nazənin ağlayaraq bildirib ki, elə bil balası ölüb. Məşhurların bu cür açıqlamaları birmənalı qarşılanmadı. Siz də bir neçə il öncə Sabirabadda "vor zakon" Hikmətin qəbrini ziyarət etmişdiniz. Fotolarınız mətbuatda yayılmışdı. Sənət adamlarında bu qədər "vor zakon" sevgisi haradandır?***

- Mən də bu sənətin "vor zakon"uyam. Sözün düzünü deyən, haqqı tələb edən insanam. 17-18 yaşım olan zaman atamla toylara gedirdim. Kimsə artıq söz deyəndə, etik çərçivədən çıxanda deyirdim ki, sazı başına vuracağam. Toyda ifa üçün 10 manat verib deyə kimsə sənətçini incidə bilməz. Atam həmişə deyirdi ki, davakarsan, sənətdən uzaqlaş. Mən öz adıma deyim ki, "vor zakon"ları sevən adamam. Çünki onlar düzlüyü sevirlər. Mənim gücüm yoxdur, idmançı deyiləm. Üstümə 5 adam gəlsə, onu sözlə başa salaram. "Vor zakon"ların da çoxunun gücü olmur, mühafizəçiləri, killerləri olub. Onlar bir sözlə qarşısındakını başa salırlar. Onların bir neçə məclisində olmuşam. Sabirabadda Lotu Hikmətin, Lotu Bəxtiyarla qəbrini ziyarət etmişəm. Rövşənlə də görüşmək istəyirdim, qismət olmadı. Cəsarət edib "Dolya vorovskaya" mahnısını sazda ifa etmişəm. Lotu Quli həbsxanadan mənə təşəkkür etmişdi. Lənkəranskinin ölməyi mənə də təsir etdi, gənc idi. Eşitdiyimə görə, Rusiyada azərbaycanlılara kömək edirmiş, arxasında dururmuş.

***- Lənkəranski haqda sənətçilərin sosial şəbəkədə bu qədər çox yazmağını "gündəmlə özünü reklam etmə" kimi qiymətləndirənlər də oldu.***

- Mən sadəcə olaraq "Allah rəhmət etsin" yazmışdım. Reklam üçün bu addımı atmamışam. İçimdən gəlib. Kaş, onun qarşısına çıxıb öldürərdilər. Ona gözlənilməz anda hücum edib öldürmək kişilikdən deyil. Allah onu öldürənə lənət eləsin.




***- Bir az da sizi aldadaraq 63 min manatınızı mənimsəyən şəxslə bağlı açılan cinayət işindən danışaq. Abşeron rayonunda başladılan işdə son durum nədir?***

- Abşeron rayonunda iş açılıb. Onlara da sözümü dedim, bu işə baxmasalar, nazirin qəbuluna gedəcəyəm. Cinayət işi başladılsa da, o şəxsi tutmayıblar. Rahat azadlıqda gəzir. Məndən başqa iki adamı da aldadıb. Amma vecinə deyil. Bir dəfə də bu məsələyə görə mənimlə əlaqə saxlamayıb. Mən də işin sonunu gözləyirəm.

***- Aşıq qadınların geyimləri tez-tez gündəmə gəlir. Bildirilir ki, xanım aşıq qapalı geyinər, şalvar, qısa ətək geyinməz. Sizcə, xanım aşıqlar necə geyinməlidir?***

- Aşıq qadınların geyim məsələsini mən gündəmə gətirmişəm. Məncə, xanım aşıqlara xüsusi geyim hazırlanmalıdır.

***- Bəs, kişi aşıqlar necə geyinməlidir?***

- Kişilər üçün xüsusi geyim yoxdur. Əvvəllər var idi. İndi kim yayın istisində qalın çəkmə geyinər? O keçmişdə qaldı. Dövlət tədbirləri, Novruz şənlikləri olanda çuxa var, onu geyinirik. Xanımlar da milli geyim geyinir. Çox gözəl görünür.

***- Aşıq sənəti sizə nə verib?***

- Bu sənət mənə hər şey verib. Yenidən doğulsam, yenə aşıq olardım. Mən restoran işlətmişəm, maşın alveri etmişəm. Hamısında ziyan etmişəm. Bir iş görmək istədim, 53 min "atdılar". Allah mənə bu sənəti verib, narazılığım yoxdur. 100-ə yaxın tələbəm var. 33 yaşımda "Köklə sazı" layihəsinin rəhbəriyəm. İnsanlar mənə hörmət edir. Mən də sənətim üçün pullar xərcləyirəm.

***- Bu sənət sizdən nə isə alıb? Heç peşmanlıq yaşamısınız?***

- Heç vaxt peşman olmamışam. Bu dədə-baba sənətidir. Mən sənətimi sevirəm. Bu gün Mədəniyyət naziri də, Aşıqlar Birliyinin sədri də, şirkət rəhbəri də olsam, sənətimi atmaram. Davam etdirərəm, tələbələrə dərs keçərəm, mahnılar üzərində çalışaram, konsertlər verərəm. El şənliklərinə isə getmərəm. Toyları sevmirəm. Düzdür, pulumuz oradan çıxır, amma, məncə, sənət toyda ölür.

***- Kimləri dinləyirsiniz?***

- Cabir Abdullayev, Güllü Muradova, Könül Xasıyeva, Ehtiram Hüseynov, Babək Niftəliyevi bəyənirəm. Aşıqlardan Zülfiyyəyə, Ədalətə qulaq asıram. Cavan aşıqlar var, efirdə meymunluq edirlər. Onları sevmirəm.

***- Keçək şəxsi həyatınıza. 33 yaşınız var. 2 il öncə tələbənizlə nişanlandınız. Bəs niyə ailə qurmadınız?***

- Nişanlımla ayrılmışıq. İnşallah, tezliklə evlənəcəyəm. Həyatımda ailə qura biləcəyim xanım yoxdur. Hələ ki, seçirəm. Mənimlə ailə qurmaq istəyən xanım çoxdur. İçib-çəkmirəm, avara deyiləm, hər yerdə hörmətim var. Evlənəcəyim qız məni başa düşməlidir. Tanınmış aşığam, jurnalistlər, sənət dostlarım, pərəstişkarlarım mənə zəng edir. Gərək o xanım məni başa düşsün. Deməsin ki, filan kəs niyə o şərhi yazdı, niyə "can" dedi, o qızı dostluğundan çıxar. Dar düşüncəli qadını sevmirəm. 20 yaşım yoxdur ki, evlənib, boşanım. Bir dəfə ailə quracağam, qəbirə qədər davam edəcək.

***- Nişanlınızla ayrılma səbəbiniz nə idi?***

- O da aşıq idi. Söz vermişdi ki, ailə qurduqdan sonra ancaq müəllimlik edəcək. Sonra gördüm el şənliklərinə gedir, məşhurluq başını gicəlləndirib. Ayrıldım.

❑ **Könül İBRAHİM,**
❑ **Fotolar Məhəmməd TÜRKMƏNİNDİR**

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ nizamlanması ABŞ-Rusiya rəqabətinin girovluğunda

## Problemin həllini düyünə salan daha bir amil; Putinin ayrıca Qarabağ planı varmı, konfliktin çözümü üçün vasitəçi güclərin optimal əməkdaşlıq formatı, nəhayət, tapılacaqmı? Sabiq həmsədr qapalı danışıqların detallarını açdı...

**Prezidentlərin son Peterburq görüşündən keçən 2 ay Qarabağ danışıqlarında yeni pauza dövrünə əlavə olundu. Aprel döyüşlərindən sonra məsələdə siyasi-diplomatik hərəkətlilik göstərən vasitəçi dövlətlər iki yüksək səviyyəli görüşdən sonra sanki yenidən öz işlərini bitmiş hesab edirlər.**



Düzdür, Rusiyanın müəyyən qəbildən yeni səyləri davam edir. Ancaq bu səylər hələlik danışıqlarda dönüş və ya sıçrayış eləmək gücündə deyil deyəsən. Hər halda Rusiya prezidentinin son müsahibəsində söylədiyi "münaqişə tərəfləri öncə özləri razılığa gəlməlidir sözləri Kremlin konfliktin həllində kardinal səylər göstərmək fikrində olması ilə bağlı nikbinliyi xeyli azaldıb.

Bununla belə, masa üzərində Qarabağa dair "Putin planı" deyilən bir həll planın olduğu haqda iddialar da var və davam edir. Bəzi təhlilçilərə görə, Moskva məsələ ilə bağlı təşəbbüskarlığı azaltmayıb. Hətta ilin sonunadək sülh prosesində irəliləyişin olmasını qaçılmaz sayan politoloqlar var.

*****

Bəs Putinin ayrıca Qarabağ planı varmı? Bu xüsusda ATƏT-in Minsk Qrupunun sabiq amerikalı həmsədri, Birləşmiş Ştatların ölkəmizdəki keçmiş səfiri Metyu Brayzanın ABŞ-ın "Atlantik Council" beynəlxalq əlaqələr sahəsində qeyri-hökumət analitik mərkəzinin saytında yerləşdirilmiş, Qrabağa dair təhlili məqaləsi diqqət çəkir.

"Dağlıq Qarabağ konflikti də daxil, SSRİ məkanında qızışdırılan etnik münaqişələr Sovet İttifaqının zəifləməsi və ardınca dağılmasını istəyən qüvvələrin qələbəsi idi". Həmin məqalə bu sitatla başlayır. Müəllif analitik yazısında ilk növbədə Vaşinqtonu Dağlıq Qarabağ məsələsinə daha çox diqqət və güc ayırmağa çağırır. Diplomata görə, yalnız bu halda Kremlin Qarabağ məsələsində dominantlığını əngəlləmək mümkündür.

Onun fikrincə, əgər prezident Vladimir Putinin planı həyata keçsə, Vaşinqtonun Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq strategiyası iflas təhlükəsi altına düşəcək. "ABŞ üçün bu təkliflər (Putinin təşəbbüsündən söhbət gedir-red.) gerçəkdən də gözlənilməzdir və onlara qarşı hansısa kontur-tədbirlər qoyulmalıdır" - Brayza bildirib.

M. Brayza daha sonra yazır: "Putinin bu yaxınlardakı təkliflərinin əsasında 2007-ci ildə Minsk Qrupunun təklif elədiyi və "Madrid prinsipləri" kimi tanınan təkliflər dayanır. Bu sənəd siyasi nizamlama üçün aşağıdakı paket elementləri nəzərdə tutur:

- Ermənistan Dağlıq Qarabağ ətrafında işğal elədiyi bütün 7 rayonu qaytarır;
- Dağlıq Qarabağ aralıq hüquqi status qazanır;
- Yekun hüquqi status Dağlıq Qarabağ əhalisinin səsverməsi yolu ilə müəyyən olunur, səsvermənin tarixi sonra müəyyən ediləcək;
- Dağlıq Qarabağla Ermənistan arasında nəqliyyat dəhlizi yaradılır;
- Beynəlxalq sülhməramlı qüvvələr Dağlıq Qarabağ əhalisinin və təmas xətti boyu kəndlərin təhlükəsizliyini təmin edir;
- Azərbaycan Ermənistanla nəqliyyat əlaqələrinə tətbiq elədiyi bürün məhdudiyyətləri götürür.

Bu prinsiplər bir neçə il aparılan danışıqlar nəticəsində Azərbaycan və Ermənistanın prezidentləri və xarici işlər nazirləri tərəfindən qəbul edilib - hərçənd, bu sistem heç vaxt rəsmən razılaşdırılmayıb. 2009-cu ilin yanvarında Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sərkisyan optimistcəsinə bəyan elədilər ki, yekun etibarilə bu prinsiplər qəbul ediləcək. Ancaq həmin ilin sonunda Serj Sərkisyan öz mövqeyini dəyişdi və Azərbaycana yeddi yox, beş rayonun qaytarılmasının mümkün olduğunu bildirdi. Yeddi rayon əvəzinə beş rayonun qaytarılması məsələsi indiyə qədər də danışıqlarda irəliləyiş yolunda əsas maneə olaraq qalır".

Eks-diplomat ardınca qeyd edir: "İyunun 20-də Putin Sankt-Peterburqda öz azərbaycanlı və erməni həmkarları ilə görüşdə bu dalandan çıxmağın yolunu tapdı. Görünür o, irəliyə doğru tədricən hərəkət eləməyi təklif edib - Ermənistan iki rayonu qaytarmalı, Azərbaycan isə qarşılığında nəqliyyat əlaqələrini və Ermənistanla iqtisadi əlaqələri açmalıdır. Madrid prinsiplərinin bütün digər aspektləri, o sırada yerdə qalan beş rayon məsələsi sonrakı danışıqların predmeti olacaq. Həm Əliyev, həm də Sərkisyan Putinin 20 iyun təklifini alqışlayıb - baxmayaraq ki, formal şəkildə onu qəbul da etməyiblər. Məsələ ondadır ki, hansısa kompromis qərarın rəsmən qəbul olunması siyasi və təhlükəsizlik sferasında risklər vəd edir: ehtimal ki, bu səbəbdən iyulun 17-də bir qrup erməni radikal milliyyətçisi, o cümlədən Qarabağ müharibəsinin veteranları bir polis əməkdaşını öldürüb, bir neçəsini də girov götürməklə İrəvanda polis binasını tutmuşdular".

Diplomata görə, Azərbaycanda da Qarabağ məsələsində sərt xətt müşahidə edilir. "Məsələn, vaxtilə mən Ermənistanla kompromisli anlaşmanın təbliğinə görə bir neçə azərbaycanlı deputatın tənqidinə məruz qalmışdım" - Brayza deyib.

"Dağlıq Qarabağ hər iki xalqa məxsusdur. Hər iki xalq regionu öz mədəniyyətinin beşiyi sayır. Hər iki xalq öz tarixinin böyük hissəsində dinc yanaşı yaşayıb. Ermənistandakı və Azərbaycandakı ictimai fikrə zaman lazımdır ki, bunu - Dağlıq Qarabağ anlayışının hər iki xalqın ortaq irsi olduğunu qəbul eləsin... Vaşinqtona isə səslənən təkliflərə diqqət kəsilməsi lazım. Putinin təklifləri halında ABŞ imkandan yararlanmalı və Minsk Qrupunun fəaliyyətini ən yüksək siyasi səviyyədə canlandırmalıdır" - məqalənin sonunda Brayza vurğulayır.

*****

Beləliklə, uzun müddət sülh danışıqlarının içində olan Brayza bu danışıqların bəzi gizli detallarını açmaqla yanaşı, faktiki surətdə Qarabağa dair yekun anlaşmaya mane olan bir mühüm amilə də diqqət yönəldib: onun dediklərindən belə qənaət hasil olur ki, heç də deyildiyi kimi, Qarabağ məsələsində Rusiya və ABŞ-ın mövqeyi üst-üstə düşmür, əksinə, Moskva-Vaşinqton regional rəqabəti Qarabağ ixtilafının həllində əsas əngəllərdən biridir.

Bu qənaəti ilk növbədə rəsmi Bakının ciddiyə alması vacibdir. Azərbaycana həmçinin hərb variantı seçəcəyi təqdirdə ABŞ-Rusiya rəqabətinin sonuclarını hesablamaq lazım gələcək. Çünki savaş variantında Dağlıq Qarabağ münaqişə zonası iki qlobal gücün daha sərt rəqabət meydanına çevrilə bilər.




# Azərbaycan XİN-dən dünya gənclərinə Qarabağ çağırışı

**"İşğal olunmuş Azərbaycan ərazilərində yaradılmış qondarma rejim işğal, təcavüz və qanlı etnik təmizləmənin nəticəsi olaraq, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü uğursuz şəkildə pərdələməyə xidmət edir". Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev deyib.**

O, Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində 15-18 sentyabr tarixlərində "Dağlıq Qarabağın 25 illiyi və nailiyyətlər" adlı tədbirin keçirilməsinin planlaşdırıldığından xəbərdar olduqlarını bildirib: "Dünya ictimaiyyətinə yaxşı məlumdur ki, Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, gücdən istifadə etməklə suveren Azərbaycan ərazilərini işğal edib və həmin ərazilərdə azərbaycanlılara qarşı qanlı etnik təmizləmə törədib. Qanlı etnik təmizləməyə, ən ağır hərbi cinayətlərə məruz qalaraq 25 ildən artıq qaçqın və məcburi köçkün vəziyyətində yaşamağa məcbur olan bir milyondan artıq azərbaycanlının faciəsi və humanitar fəlakəti üzərində qurulmuş qeyri-qanuni rejimi "Dağlıq Qarabağın 25 illiyi və nailiyyətlər" kimi təqdim etmək və bu prosesə digər ölkələrdən olan gəncləri cəlb etməyə cəhd etmək nəinki beynəlxalq hüquqa, hətta ən adi insani dəyərlərə hörmətsizlik və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey deyil".

XİN-in mətbuat katibi digər ölkələrdən olan gəncləri və mütəxəssisləri Ermənistanın bu yalançı çağırışlarına uymamağa, qanlı etnik təmizləmə və işğalın nəticəsində yaradılmış qondarma rejimin təbliğində alətə çevrilməməyə çağırıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016

# "Günəşli" yatağında itkin düşən neftçilər iyundan ölmüş sayılır, amma...

## Həlak olan və itkin düşən neftçi ailələri aşağı maaşla işə götürülür; hadisə ilə bağlı yaranan bəzi müəmmalar davam edir; **Mirvari Qəhrəmanlı:** "Ən pisi odur ki..."

**"Günəşli" yatağının 10-cu Dərin Dəniz Özülündə baş verən yanğının 9 ayı yaxınlaşır. Dəhşətli faciə nəticəsində itkin düşən 17 neftçinin axtarışları dayandırılsa da, onların ölmüş sayılmaları hələ məlum deyil. Çünki bu barədə rəsmi məlumat verilməyib.**

İtkin neftçilərin ailələrinə yardımların edilməsi barədə də dolğun məlumat yoxdur. Eyni zamanda onların bəzilərinin ailə üzvlərinin aşağı maaşla işə götürülməsi narazılıqlar yaradıb ki, bu hal hələ də davam edir.

Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının sədri Mirvari Qəhrəmanlı bildirdi ki, qanunla itkin neftçilər iyun ayından ölmüş sayılırlar: "Bildiyimiz kimi, 2015-ci il dekabrın 4-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Günəşli" yatağının 10 saylı stasionar Dərin Dəniz Özülündə şiddətli yanğın baş verdi. Nəticədə ağır hava şəraiti və güclü qasırğa qəza yerində olan 14 nəfər işçinin həyatına son qoydu, 17 nəfər neftçi itkin düşdü, 32 nəfəri isə müxtəlif xəsarət və psixoloji təsir alıb. Təşkilatımıza daxil olan məlumata görə, bir nəfər 1-ci qrup əlil olub. Bu və ya digər bu tipli faciələr işəgötürənin mövcud qanunvericiliyi pozduğu üçün baş verib. Mülki Məcəllənin müvafiq maddələrinə görə, 4 dekabr 2015-ci ildə itkin düşmüş neftçilər iyun ayından artıq ölmüş sayılmalıdır. Qanunvericiliyin 41.1-ci maddəsində göstərilir ki, əgər şəxsin yaşayış yerində onun harada olması barədə beş il ərzində məlumat olmazsa, habelə o, ölüm təhlükəsi törədən və ya hansısa bədbəxt hadisədən həlak olduğunu güman etməyə əsas verən şəraitdə xəbərsiz itkin düşərsə və ondan altı ay ərzində xəbər çıxmazsa, o, məhkəmə qaydasında ölmüş elan edilə bilər. Bununla əlaqədar təşkilatımıza müraciət edən itkin ailələrinə



məlumat verilib. Və düşünürəm ki, itkin düşmüş neftçi ailələrinə onlar üçün ağır olan bu prosesin aparılması üçün şirkətin hüquq departamenti tərəfindən müvafiq hüquqi yardım olunacaq. Təşkilatımıza qəza nəticəsində həlak olmuş ailələrə kompensasiyanın verilməsi ilə əlaqədar şikayət daxil olmayıb. Sadəcə, əmək və əhalinin sosial müdafiə naziri Səlim Müslümov "Günəşli" yatağındakı qəzadan sonra hadisədə həlak olanların ailələrinə və əmək qabiliyyətini itirənlərə sığorta ödənişləri ilə əlaqədar açıqladığı böyük məbləğlər çaşqınlıq yaradıb. Şirkət həmin ailələrə müəyyən yardımlar edib. Lakin əsas narahatlıqlar ailə üzvlərinin işlə təmin olunması və yaşayış problemidir. Ailə başçısı olan neftçilərin ailəyə gətirdiyi 1500-1800 məbləğində aylıq əməkhaqqını yardımlar əvəz edə bilmir. Çünki həlak olmuş neftçi ailəsi aşağı əmək haqla, 300-400 manat civarında işlə təmin olunur. Onların içərisində kirayədə yaşayan ailələr var. Bununla əlaqədar şirkət rəhbərliyinə müraciət olunsa da, onlar bunun qanun "pozuntusu" olacağını qeyd etdilər. Düşünürəm ki, əsl qanun pozuntusu bu insanların həlak olmasına səbəb olan qanun pozuntusudur. Təşkilata daxil olan şikayətlər isə məhz qeyd etdiyim bu problemlərlə əlaqədar olub".

M.Qəhrəmanlı axtarışların fevral ayından dayandırıldığını da qeyd etdi: "Axtarışlar bizim müşahidəmizə görə hələ fevral ayından dayandırılıb. Türkmənistan ətrafında tapılan cəsədlər axtarış nəticəsində yox, təsadüfi tapılanlardır. Ən pisi isə odur ki, hələ də Hökumət Komissiyasının rəyi cəmiyyətə açıqlanmayıb. Baş verən hadisələrə (həmin gün Neft Daşlarında da üç nəfər həlak olub) heç kim günahlandırılmayıb və cəzalandırılmayıb".

Xatırladaq ki, "Günəşli" yatağında yanğın ötən il dekabrın 4-də baş verib. Hadisə zamanı platformada 63 nəfər olub. Onların 33-ü xilas edilib.

❑ Cavanşir ABBASLI



## Evli adamın qaçırdığı nişanlı qız tapıldı və... ailəsinə verilmədi

**3 gün öncə Cəlilabad rayonunun Boyxanlı kəndində evli kişi tərəfindən qaçırılan 17 yaşlı nişanlı qız tapılıb. Qızın yaxınlarının Qafqazinfo-ya verdiyi məlumata görə, o, hüquq-mühafizə orqanları tərəfindən tapılaraq polis bölməsinə gətirilib.**

Amma tapılan qızın ailəsi bu məsələdən narahatdır: "Bizə deyirlər ki, qızın artıq 16 yaşı olub və onu sizə təhvil verə bilmərik. Guya, qız özü nəticə çıxararaq ailəsi ilə qalıb-qalmamaq haqda qərar verməlidir. Bizə qızımızla görüşməyə icazə vermirlər. Axı qanunvericilikdə belə bir şey yoxdur, onun 18 yaşı tamam olmayıb ki, qərar versin. Qız tapılan kimi bizə verilməli idi. Bəlkə elə ona təzyiq olunur?! Bəlkə onun beyninə salırlar ki, "səni bundan sonra heç kim qəbul etməz?!"

Polis orqanları hələ ki, qızın verdiyi qərarı ailəsinə açıqlamayıblar.

# Abituriyent ali məktəbə qəbul olmasa, repetitor pulu qaytarmalıdırmı?

**Ali məktəblərə qəbul imtahanları artıq geridə qaldı. Bu il də müəyyən sayda abituriyent imtahanlarda yüksək nəticə göstərərək arzuladığı universitetlərə daxil ola bildi. Lakin statistikadan da görünür ki, imtahanlarda aşağı bal toplayıb, tələbə adını qazana bilməyən abituriyentlər də kifayət qədər çoxdur.**

Çoxsaylı valideyn şikayətindən məlum olur ki, bu il də tələbə adını qazana bilməyən abituriyentlərin əksəriyyəti uzun illər repetitor yanına gedən şagirdlərdir. O da məlumdur ki, ölkədə uzun müddətdir ki, repetitor fəaliyyəti geniş vüsət alıb. Valideynlər təhsil müəssisələrində keçirilən dərslərin səviyyəsinə güvənməyərək övladlarının gələcəyini daha çox repetitorlara həvalə edir, bunun üçün üst-üstə külli miqdarda pul xərcləyir.

İddialara görə, artıq bir neçə valideyn övladları ali məktəbə daxil ola bilmədiyi üçün repetitorlardan pullarını geri tələb etməyi düşünür. Bəs görəsən qanun nə deyir, abituriyent ali məktəbə qəbul olunmasa, repetitor pulu geri qaytarmalıdırmı?

Məsələ ilə əlaqədar tanınmış hüquqşünas Müzəffər Baxışa müraciət etdik. Hüquqşünas valideynlərin bu cür tələbinin əsassız olduğunu qeyd etdi: "Ümumiyyətlə nə repetitor, nə də valideyn müqavilə bağlamaqda maraqlı olmurlar. Ən yaxşı hal müqavilə bağlamaqdır və müqavilədə bütün şərtlər göstərilməlidir. İnanmıram ki, hansısa repetitor təminat versin ki, abituriyent ali məktəbə daxil ola bilməyəndə pulları geri qaytaracaq. Əslində bu valideynlərin haqsız tələbidir, hüquq prinsiplərinə uyğun deyil. Valideyn pulun qaytarılmasını tələb edə bilməz. Valideyn repetitoru məhkəməyə verə bilər ki, ona ödənilən pulun müqabilində övladına dərs keçirilməyib, məsələn, həftədə 3 dərs keçirilmək əvəzinə 2 dərs keçirilib və sairə. Yəni bu, şərtlər daxilində məhkəməyə müraciət oluna bilər. Repetitor şagirdə dərs keçir. Uşaq da bu və ya digər səbəblərdən həyəcanlanır və yaxud digər səbəblərdən imtahanlardan keçə, lazımi balları toplaya bilmir. Buna görə repetitor nəyə görə məsuliyyət daşımalıdır? Azərbaycanda da belədir ki, ağıllı valideynlər bir qayda olaraq öz uşaqlarını savadlı repetitorlara həvalə edirlər".



**Müzəffər baxış:** "Valideynlərin bu cür tələbi əsassızdır"

Hüquqşünasa görə, əgər hansısa repetitorla valideyn arasında müqavilə bağlanılarsa və müqavilənin şərtlərində göstərilsə ki, repetitor həmin uşağın ali məktəbə daxil olmasına təminat verir, artıq valideyn dərk etməlidir ki, o repetitor dələduzdur: "Bu imtahan elə bir prosesdir ki, orada bu və ya digər qarşısı alınmaz hallar baş verə bilər və bunun nəticəsində ən savadlı uşaq ondan gözlənilən nəticəni göstərə bilməsin. Müqavilədə belə bir şərtin göstərilməsi düşünürəm ki, düzgün deyil. Bu şərt ümumiyyətlə müqavilədə göstərilə bilməz. Bəzi şagirdlər var ki, dələduzluqla məşğuldur, dərs oxumur, valideynlər də sonradan günahı repetitorlarda görürlər, mən bunu əsaslı hesab etmirəm. Və düşünürəm ki, Azərbaycanda son dövrlərdə güclü repetitorlar olmasaydı, şagirdlər təhsil müəssisələrin hesabına güclü nəticələr göstərə bilməzdi. Çünki hamıya məlumdur ki, ölkədə təhsil müəssisələrin verdiyi təhsil hansı səviyyədədir. Ona görə də mən valideynlərin bu cür tələbini əsassız hesab edirəm. Repetitorlar isə müqavilə bağlamaqda ona görə maraqlı olmurlar ki, vergidən yayınsınlar. Əslində bununla vergi qanunvericiliyini əsaslı şəkildə pozmuş olurlar. Ölkədə elə repetitorlar var ki, çox yüksək gəlir əldə edir, amma vergidən yayınır".

Hüquqşünas onu da qeyd etdi ki, müqavilə bağlamadan fəaliyyət göstərən repetitorlar məsuliyyətə cəlb oluna bilərlər: "Mülki müqavilə olmasa repetitor heç bir məsuliyyətə cəlb oluna bilməz. Amma əgər repetitor vergi orqanlarından keçməyibsə, vergi ödəmirsə, onda o, qanunsuz sahibkarlıqla məşğul olduğuna görə məsuliyyətə cəlb edilə bilər. Əgər repetitorun əldə etdiyi gəlir 20 min manatdan artıq olarsa, onda Cinayət Məcəlləsinin 192.1 maddəsinə görə əldə olunmuş gəlirin 2 misli miqdarda cərimə və ya 6 ayadək azadlıqdan məhrumetmə ilə cəzalandırıla bilər. Əgər onun əldə etdiyi gəlir 100 min manatdan yuxarı olduqda bu artıq külli miqdarda ziyan vurmaq kimi qiymətləndirilir və bu əməllər CM-nin 192.2.1 maddəsi ilə tənzimlənir. Buna görə əldə edilmiş gəlirin 3 misli və ya 1 ildən 5 ilədək azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulub. Repetitor 20 min manatdan aşağı gəlir əldə etsə, onda o, İnzibati Xətalar Məcəlləsinə görə məsuliyyətə cəlb edilə bilər. Məcəllənin 398-ci maddəsinə əsasən həmin repetitor dövlət qeydiyyatına alınmadan və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya tələb olunduğu hallarda belə lisenziya almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa, yaxud lisenziyada nəzərdə tutulmuş şərtlərin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə edilir".



❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016

# Məmur ərini öldürən qadının cinayət işində müəmmalar

## Məhkəmə istintaqı yekunlaşssa da, bəzi suallar açıq qalır

**Məmur ərini öldürməkdə təqsirləndirilən qadının məhkəməsi başa çatmaq üzrədir. Artıq məhkəmə istintaqı başa çatıb. Maddi sübutlar məhkəmədə tərəflərin iştirakı ilə müzakirəyə çıxarılıb, şahidlərin ifadələri, hadisə yerinə baxış protokolları məhkəmə zalında elan olunub.**

Ən səs-küylü məhkəmə proseslərindən olan və dəhşətli qətlin üstünün açılması üçün açılan cinayət işi üzrə artıq 2 ilə yaxındır araşdırmalar davam edirdi. Söhbət Bakı Ağır Cinayətlər Məhkəməsində ərini, Daşınmaz Əmlak üzrə Dövlət Reyestri Xidmətinin rəis müavini olmuş Füzuli İsgəndərovu öldürməkdə təqsirləndirilən Xalidə İsgəndərovanın cinayət işindən gedir.

Qətl hadisəsi 2014-cü ilin senyabrında baş verib. Xalidə İsgəndərovanın və hadisə zamanı yanında olan kiçik qızı Əmanənin istintaqa verdikləri ilk ifadələrə görə qətli törədən naməlum bir şəxs olub və o, evə tamah məqsədi ilə girib. Lakin hadisədən 8 ay sonra Xalidə İsgəndərova ərinin qətlində şübhəli bilinərək həbs edildi. Həm də qızı Əmanənin ifadəsi əsasında. Lakin sonradan məhkəmədə ifadə verən Əmanə bu dediklərini inkar edib.

"Müstəntiq məni aldatdı. Dedi ki, belə ifadə versən, ananı dəlilik kağızı ilə azadlığa buraxa bilərik. Yoxsa, ömürlük həbs ediləcək"- Əmanənin məhkəmədəki ifadəsindən.

Məhkəmə istintaqı başa çatdı. Sonuncu məhkəmə prosesində hakim Əfqan Hacıyev məhkəmə istintaqının başa çatdığını elan edib. Prosesin əvvəlində zərərçəkmiş kimi tanınan mərhumun atası Haqverdi İsgəndərov nəvəsi Əmanənin müstəntiqə verdiyi ilk ifadəsinin, hadisə yerində yoxlanması zamanı çəkilən videogörüntülərin məhkəmə zalında izlənilməsini istəyib. Əmanənin hər iki ifadəsi məhkəmədə izlənilib.

Əmanənin həmin ifadələrindən sitatlar:

"Hadisə yerindən tapılan medalyonu ora anam atmışdı. İz itirmək üçün. Sonradan həmin medalyonun qatilə aid olduğunu dedik".

"Evimizin yanında olan torpaq ərazidə olan ayaq izlərini də anam qoymuşdu. Qatilin ayaq izi olduğu kimi bilinsin deyə".

"Bacımın toyundan gəldik. Axşam xalam zəng elədi ki, nənəmin vəziyyəti pisləşib. Anam getmək istədi. Ancaq atam aparmadı. Mübahisə etdilər. Axşam yatdıq. Səhər isə bu hadisə baş verdi. Anam skaypla Türkiyədə olan İlyas dayımla mənim telefonumla danışdı. Hadisəni törətdiyini dedi. Dayım 1 ay sonra Bakıya gəldi".

Daha sonra izlənilən videogörüntüdə Əmanə müstəntiqlə birlikdə hadisənin baş verdiyi evlərində ifadəsini təkrarlayıb. Məhkəmə prosesində hakim Əfqan Hacıyev maddi sübutlar arasında yer alan, hadisə yerindən tapılan medalyonu vəkillərə göstərib.






Məhkəmə istintaqı başa çatarkən hakim tərəflərə müraciət edərək başqa tələblərinin olub-olmamasını soruşub. Tərəflər məhkəmə istintaqının yekunlaşmasına etiraz etməyib. Hakim Xalidə İsgəndərovadan da məhkəmənin bu mərhələsi ilə bağlı fikrini soruşub. Lakin X.İsgənədərova əvvəlki proseslərdə olduğu kimi bu dəfə də susqunluğunu qoruyub və danışmayıb.

Növbəti məhkəmə prosesi avqustun 24-də keçiriləcək. Prosesdə dövlət ittihamçısı çıxış edərək təqsirləndirilən şəxsə iş istəyəcək. Daha sonra isə təqsirləndirilən şəxsin və zərərçəkmiş tərəfin vəkilləri çıxış edəcək. X.İsgəndərovaya da son söz veriləcək.

**Qətldə bu günə qədər müəmmalı qalan məqamlar**

19 bıçaq zərbəsi ilə öldürülən F.İsgəndərovun qətlində əsas şübhəli olaraq xanımı həbs edilsə də, işdə bəzi müəmmalı məqamlar diqqət çəkir. Bu müəmmalar təqsirləndirilən şəxsin vəkilləri tərəfindən məhkəmə proseslərində səsləndirilib. Müəmmalı məqamlardan biri şahidlərdən birinin gördüyü naməlum şəxsdir. Belə ki, şahid kimi ifadə verən Sahib İbrahimov qətlin baş verdiyi mənzilin yaxınlığındakı tikinti şirkətində sahə rəisi olaraq çalışır. O, polisə ifadəsində hadisə baş verəndən bir neçə dəqiqə sonra naməlum şəxsin ondan avtomobil yoluna necə çıxa biləcəyini soruşduğunu deyib.

Digər bir məqam isə hazırlanan fotorobotla bağlıdır. Fotorobot təqsirləndirilən şəxsin, onun kiçik qızı Əmanənin və tikinti şirkətinin əməkdaşı olan Sahib İbrahimovun ifadəsi əsasında hazırlanıb. Vəkillər bildirib ki, hər üç şəxsin verdiyi ifadələrə əsasən hazırlanan fotorobotlarda böyük oxşarlıq var.

Ən əsas müəmma isə qətlin baş verdiyi evin yaxınlığından tapılan maska ilə bağlıdır. Cinayət işi materiallarında yer alan Su Anbarının ərazisinə baxış protokolunda maskanın tapıldığı qeyd edilir. Həmin maskanın qadın corabından düzəldiyi qeyd edilir. Sonradan həmin maska maddi sübutlar sırasından çıxarılaraq məhv edilib. X.İsgəndərovanın vəkilləri bununla bağlı öz etirazlarına bildiriblər.

Sahə rəisinin dediyi ifadələr də diqqət çəkən olub. Belə ki, polis əməkdaşı ifadəsində hadisə yerinə baxış zamanı nəzarət kamerasında naməlum şəxs gördüklərini, ancaq sonradan həmin şəxsin kimliyinin araşdırılmadığını deyib.

**Bir qətlə dağılan iki ailə...**

Ailənin böyük qızı Bülbülə isə məhkəmədə verdiyi ifadəsində qətldə anasından və bacısından şübhələndiyini bildirirdi. Bülbülə bacısının ona hadisəni etiraf etdiyini iddia edirdi. Hadisədən sonra Əmanə xalası və dayısı, Bülbülə isə bibisi və əmisinin himayəsində yaşamağa başlayıb. Bülbülə daha sonra bibisindən ayrılaraq tək yaşamağa başlayıb.

Qətl hadisəsi Bülbülənin toyundan bir gün sonra baş vermişdi. Bülbülənin yeni qurduğu ailədə də xoşbəxtliyi uzun çəkməyib. O, hadisədən qısa müddət sonra boşanıb. Bülbülə ifadəsində atasının ölümü ətrafında baş verən qalmaqalların mülklərlə bağlı olduğunu deyirdi. Atası məmur olduğundan ona məxsus obyektlər, mənzillər və digər mülklər qohumlarının adına olub. O, bəzi qohumlarının mülk üstündə olan maraqlarına görə işə müdaxilə etdiklərini söyləyirdi.

Musavat.com qətli törətməkdə təqsirləndirilən Xalidə İsgəndərovanın eksklüziv fotosunu əldə edib. Bu günə qədər məmur ərinin qətlində təqsirləndirilən X.İsgəndərovanın fotosu yayımlanmamışdı.

Xatırladaq ki, qətlə yetirilən F.İsgəndərov həm də sabiq maliyyə naziri Əvəz Ələkbərovun xalası oğludur.

❑ **İlkin Muradov**
❑ **Musavat.com**

# Seçimimiz olsaydı...



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Bilirəm ki, belə günlərdə kriminal avtoitetin ölümündən kənar mövzudan yazana... mədəni desək, pis baxırlar. Özgəsi vaxt adi tərcümə yazısı deyib, 1500, ən yaxşı halda 2000 nəfərin oxuyacağı materialın başlığına mərhumun adını əlavə edən kimi 20 min nəfər oxucu qazanmasını görmüş gözlərin sahibiyik biz. Necə deyərlər, olub bitənin fərqindəyik.**

Amma o gün məhlədə düşən bir tükürpədici yay davasının sədalarını eşidəndə ağlıma gəldi. Sanki birdən insanın gözündən qara pərdə çəkilir ha, onun kimi. Fındıq qabığını doldurmayacaq bir səbəbə görə bir dəqiqənin içində neçə insanın vəhşiləşməsi gözümün qabağında cərəyan etdi. Dedikləri sözlər, bir-birinin ünvanına təhqir, söyüşlər. O anda bir daha anladım ki, bu insanlar ömürlərində əllərinə kitab almayıblar. Çünki həyatı boyu "Cırtdan" xaric, bir əsəri axıra qədər oxumuş adam cahildən mütləq fərqlənir, fərqlənməlidir. Həmin kitab onun dünyagörüşünə də, təhsilinə də, danışığına da təsir göstərir. Bu qədər ibtidailəşmir, heyvanilikdən çıxır, məsələyə daha insani yanaşmağa çalışır.

Amma bizimkilər.... üstündən qırmızı xətt çəkilmiş söz kimi yanaşırlar kitaba, kitab mağazalarına. Zarafat deyil, Bakı kimi bir şəhərdə üst-üstə toplasan bir əlin barmaqlarının sayı qədər kitab mağazası yoxdur. Mən kitab almaq üçün mütləq şəhərin bir başından o biri başına getməliyəm. Sıradan bir şirniyyat mağazasının, tortbişirən firmanın şəhərin 50 yerində şöbəsi var. Amma kitab almaq istəyənlərin belə bir lüksü yoxdur. Gözəllik salonu, restoran, "moyka"... hər küçədə yox, hər tində tapmaq olar. Kitab mağazası isə... yağlı əppək kimi göydədir.

Fikir vermişəm, dünyanın istirahət guşələrində dincələn turistlərin əllərindən kitab düşmür. Yaşlısı-cavanı şezlonqda uzananda da, skamyada oturanda da, qarşısına çay-kofe qoyulanda da kitabdan gözünü çəkmir. Bədənini dincə qoymaqla yanaşı, ruhuna da istirahət verir. Türkiyənin istirahət guşələrində, hovuzların yanında cüzi məbləğə kitab kirayəsinin mövcud olması bununla bağlıdır. Dəfələrlə fikir vermişəm, orada daha çox rusdilli və türkdilli ədəbiyyat olur. Oxuyanlar da təbii ki, ruslar və yerlilər. Almanlar, ingilislər, italyanlar... kitablarını özləri ilə gətirirlər. Çimərlik çantalarına günəş yağı ilə paralel qoyurlar, unudanda istirahət canlarına sinmir.

Səmimi olun, bu günə qədər çimərlikdə kitab oxuyan neçə nəfər görmüsüz? Görmüsüzsə, onlara reaksiyanız, münasibətiniz, onlarla bağlı düşüncəniz nə olub? Etiraf edək ki, ilk reaksiya kitab oxuyanın "özünü göstərməsi" ilə bağlı olur. İnsanlara elə gəlir ki, kimsə kitab oxuyursa, bu, onun özünü ağıllı, ziyalı, oxumuş kimi göstərməsi ilə bağlıdır. Hələ bir az irəli gedib "görməmiş" damğası da yapışdırırlar. Məlum olur ki, maşınında yüksək səsgücləndirici ilə musiqi oxudan, qolunda qızıl bilərziklə dənizə gedən... görməmiş deyil, amma istədiyi kitabı çimərlikdə oxumaq istəyən adam görməmişdir, özünü kimsə göstərir və bununla üstünlük qazanmağa çalışır.

Və məhz bu cür kitab oxumayanların, elmin, ədəbiyyatın dəyərini bilməyənlərin ucbatından ölkə xaotik şəkildədir. Kimin əlinin kimin cibində olması bəlli deyil, vəzifələr, funksiyalar qarma-qarışıq şəkildədir, bir-birinə girib. Haqq-ədalət axtaran vor zakona, itiyi itən falçıya müraciət edir. Nəticədə də ortaya belə qəhrəmanlar çıxır. "Diaspora" deyəndə boğazlarındakı damarları da cırılır, amma indi məlum olur ki, Rusiyada alver edənlərin bir nömrəli müdafiəçisi mərhum mafiya başçısı imiş. Sosial müdafiə sistemi, deputatlar, banlar... gediblər işinin dalınca. Kasıbın əlindən də bunlar tutub, camaatın kredit borcunu də bunlar ödəyib.

İnsanlar gücü sevir, ona pərəstiş edir. Mən məhləmizdəki o məlum davanın qəhrəmanlarının valideynlərini görəndə anladım bunu. Üzdə narazı kimi görünsələr də, hamısının gözündə bir qürur vardı, parlayırdı göz bəbəkləri. Oğlu dalaşmışdı, kimisə "nakazat" etmişdi, sındırmışdı... öz aləmində.

Və mən əminəm ki, o valideynlərin heç biri axşam işdən evə gələndə uşaqlarına kitab almayıb. Ona "ay bala, kitabdan başını qaldırma" deməyib. Desəydi, bütün bunlar olmazdı. Bizim də qəhrəman seçimimiz daha geniş olardı...

Özümüzü suçlamayaq. Bizə seçim haqqı verməmişlər.

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016

# Rio-2016-da Azərbaycana ilk "qızıl"ı taekvandoçumuz qazandırdı



**Azərbaycan Olimpiya tarixində taekvando üzrə ilk qızıl medalını qazanıb. APA-nın xəbərinə görə, həlledici görüşdə dünya və Avropa çempionumuz Radik İsayev rəqibi Niger idmançısı Abdulrazzak İssufu ilə qarşılaşıb.**

Qarşılaşmanın ilk hissəsində hesab açılmayıb. İkinci hissədə rəqibin başına bir zərbə endirən təmsilçimiz 3:0 hesabı ilə önə keçib. Raund bu hesabla başa çatıb. Həlledici, sonuncu raundda daha bir dəqiq zərbə ilə fərqi 6:0 edən Radik qələbəsinə şübhə yeri qoymayıb. Nigerli idmançının cəhdləri isə sadəcə 2 xal qazanmağa çatıb. Bununla da, 6:2 hesablı qələbə qazanan dünya və Avropa çempionumuz kolleksiyasına Olimpiya "qızıl"ını da ələvə edib.

Qeyd edək ki, bu, həm də Azərbaycan millisinin Rio Olimpiadasında qazandığı ilk qızıl medaldır.

+80 kq çəki dərəcəsində mübarizə aparacaq dünya və Avropa çempionumuz Radik İsayev yarışa 1/8 finaldan start verib. O, mərhələ adlamaq üçün Qazaxıstan idmançısı Ruslan Japarovla üz-üzə gəlib. Görüş boyu rəqibindən üstün olan Radik İsayev ilk raundda xal qazana bilməsə də, ikinci və üçüncü raundda bu üstünlüyünü xala çevirərək rahat qələbə qazanıb - 11:2.

Təmsilçimiz 1/4 finalda Dongmin Ça (Cənubi Koreya) ilə qarşılaşıb. Pekin Olimpiadasının qalibi ilə döyüş olduqca gərgin keçib. Qarşılaşma boyunca hesabda geri olan Radik sona bir neçə saniyə qalmış fəallaşaraq vəziyyəti xeyrinə dəyişə bilib. Rəqibin başına endirdiyi effektli zərbə ilə aradakı fərqi artıran idmançımız yekunda 12:8 hesabı ilə qalib gəlib. Yarımfinalda idmançımız Böyük Britaniya təmsilçisi Mahama Ço ilə mübarizə aparıb. Ənənəvi taktikasına uyğun olaraq təmkinlə döyüşən idmançımız nəticəni son raundda həll edib. O, 0:1 geri düşdüyü görüşü 4:1 hesablı qələbə ilə başa vurub və finala adlayıb.

Bu, Azərbaycan Olimpiya tarixində növbəti ilk kimi tarixə düşüb. Belə ki, boks yarışlarından sonra taekvandoda da təmsilçimiz ilk dəfə finala yüksəlib. Çıxışını başa vuran taekvandoçularımızdan Milad Beiqi Harşeqani (80 kq) və Patimat Abakarova (49 kq) bürünc medal qazanıblar. Fəridə Əzizova (67 kq) isə yarışı 5-ci yerdə bitirib.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarınn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## DİQQƏT DİQQƏT

## Müəllimlərin nəzərinə!

"EDUCENTER" kurslarında imtahanlar başlandı!

Özünüzə və savadınıza güvənirsinizsə,

Sizi gözləyirik!

Əlaqə nömrələri: (+994 55) 729 96 86

(+994 50) 703 96 86

Ünvan: Adil Babayev 89-93 (Ərəblinka qəs.)





# "Azenco"nun yanan işçisinin müəmması

## Şirkətin bölmə rəisi intihar hadisəsinə şahidlik etmək istədiyi üçün işdən çıxarıldığını iddia edir

**Mətbuatda bir neçə dəfə qalmaqallı olaylarda adı çəkilən "Azenco" ASC-nin bu dəfə özünü yandıran işçisi ilə bağlı müəmması ortaya çıxıb. Bu barədə "Yeni Müsavat"a şirkətin Nəqliyyat İdarəsinin yol hərəkətinin təhlükəsizliyi bölməsinin rəisi, eyni zamanda səhmdarı işləmiş Babamir Qarayev müraciətində bildirib.**

Onun sözlərinə görə, ötən ilin iyul ayında əsassız yerə işdən azad olunan, Kəlbəcər rayonundan məcburi köçkün olan Məhəmməd Əliyev intihara cəhd edərək özünü yandırıb. Onu intihara sövq edən səbəb isə Audit idarəsinin rəisi Faiq Ağayev tərəfindən şərlənərək üstünə 3385 litr borc yanacaq yazılması və son əmək haqqının verilməsinə qadağa qoyulması olub: "Sürücü Məhəmməd Əliyev Faiq Ağayevlə razılaşmayıb haqqını tələb etdikdə ikinci ona hədə-qorxu gəlib təhqir etmişdi. Sürücü də təhqirlərə dözməyib iyulun 21-də Sumqayıt Texnologiyalar Parkının ərazisində yerləşən Audit idarəsinin 2-ci mərtəbəsində özünü yandırmışdı. Yanan sürücü sərbəst danışıb gəzə bilsə də, Faiq Ağayev onu zavodun içində gizlətdi ki, hüquq-mühafizə orqanları ondan izahat ala bilməsin. Beləliklə, 3 gün onu zavodun içərisində gizlətdilər. Huşu itəndən sonra F. Ağayev və əməkhaqqı şöbəsinin rəisi Araz Kərimovun naməlum adamları yanan sürücünü günorta saat 2 radələrində 5 saylı Bakı Şəhər Xəstəxanasının yanıq şöbəsinin həyətinə atıb orda deyiblər ki, Sumqayıtda partlayış olub və həmin partlayış vaxtı yanıb. Xəstəxanaya kimin apardığı isə qeyd olunmayıb. Yalnız ölüm ayağında sürücünün son əməkhaqqını ödədilər. Sürücü iyunun 24-də yanıq şokundan dünyasını dəyişdi".

Babamir Qarayevin sözlərinə görə, özünü yandıran sürücünün qəsdən zavodun içərisində gizlədilməsinə, xəstəxanaya aparılmamasına etiraz etdiyi üçün təqiblərə məruz qalıb, işdən azad edilib. B. Qarayev onu da qeyd edib ki, yanmış sürücü vaxtında xəstəxanaya çatdırılıb, həkim nəzarəti altında saxlanılsaydı, həyati təhlükəsizliyi bərpa oluna bilərdi: "Yanmış sürücünün zavodda gizlədilməsinə etiraz etdiyim üçün Faiq Ağayevin və Araz Kərimoun naməlum adamları məni izləyib bildirdilər ki, "əgər bu haqda danısan səni "Sadval" təşkilatının əli ilə yox etdirəcəyik". Dəfələrlə izlənildiyimi hiss edib baş prokurora müraciət etdim. Orada məni ölüm işini araşdıran müstəntiq Vüqar Məmmədzadənin yanına göndərdilər. Məlum olub ki, iyulun 21-də yanan sürücü haqda ölümündən sonra, 27 iyul tarixdə məlumat verilib.

Bir neçə şahidlə müstəntiqə izahat vermək istəsəm də, izahatımın müstəntiqə lazım olmadığı bildirildi. "Azərenerji" ASC-nin nümayəndəsi müstəntiqin vasitəsi ilə mənimlə görüşüb şikayətimi dayandırmağı xahiş etdi, həm də söz verdi ki, mənə olan təqiblərin qarşısını alacaq. Ara sakitləşəndən sonra dekabrın 28-də məni işdən azad etdilər. Xətai Rayon Məhkəməsi məni öz işimə bərpa etsə də "Azenco" şikayətimi rədd etdi. Onun rəhbərliyi Ali Məhkəməyə şikayət verərək bildirmişdi ki, hansı bahasına olursa-olsun məhkəmənin qərarını ləğv etdirib mənim işə bərpa olunmağıma imkan verməyəcək.

Xətai rayon məhkəməsində araşdırma zamanı o da məlum olmuşdu ki, "Azenco"nun əmək haqqı barədə verdiyi arayışlarla Bakıdan çıxarılanəmək haqqı arasında külli miqdarda fərq var. Belə ki, sən demə adımıza böyük məbləğdə maaş yazılırmış, amma həmin məbləğin az hissəsi işçilərə verilirmiş. Mən yanan sürücünün Sumqayıt Texnologiyalar Parkının içərisində gözlədilməsinin və əmək haqqının verilməsində baş verən korrupsiya hallarının araşdırılmasını tələb etsəm də, istintaq idarəsi başqa formada cavab verir. İstintaq cavab verir ki, sürücü yanıq şokundan ölüb. Yanan adamı xəstəxanaya aparmayıb zavodun içərisində gizlədəndə əlbəttə ki, şokdan öləcək".

Babamir Qarayev "Azenco"ya iki ildir ki, yeni sədr təyin olunan Vüqar Şahmuradov barəsində ilginc faktlar da bildirib: "Onun qardaşı "Qaranquş" dəstəsinin başçısı, vaxtilə polis işləmiş Şahmuradov Fuad Hüseynqulu oğlu 1993-cü ildə Qubadlı rayonunda dövlət adamlarını, prokuroru, hakimi, polis rəisini, müstəntiqi və sürücüsünü güllələyib, meyitlərini də tanınmasın deyə yandırmışdı. Daha sonra Sumqayıt şəhərinə gəlib. Burada isə onu mühasirəyə alıblar və tərkisilah əmrinə tabe olmadığı üçün atışma nəticəsində ölüb".

Yazıda adı keçən şəxs və qurumların da mövqeyini dərc etməyə hazırıq.

❑ **Xalidə GƏRAY**


## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə.**
**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**
**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**

YENİ MÜSAVAT
N 184 (6505) 22 avqust 2016



# Həyat sığortası insanlara necə sərvət qazandırır?

## Həyatını sığorta etdirsə, ailəsi milyardlar qazana bilərdi...

**Biz azərbaycanlıların ən çox üstünlük verdiyimiz sığorta növü maşın sığortasıdır. Yolda qarşılaşdığımız avtomobil qəzaları zamanı, ildə bir dəfə sığorta şirkətlərini iş yerimizə dəvət edib, maşınımızı sığortalatdırmağımız... bunun bariz nümunəsidir. İcbari sığortadan gedir söhbət. Bu olmazsa, cərimə olunarıq çünki.**

Amma bununla yanaşı, özəl sığorta da var ki, sürücülərimiz başına hansı qəza gəlirsə gəlsin, bunun şirkət tərəfindən qarşılanmasını arzulayır. Bu zaman da sığortanın sözügedən növü dövriyyəyə girir. Amma insanların həyatını sığorta etdirməsi, hər hansı təhlükələrə qarşı sığortaya müraciəti və... ölümü halında da ailəsinə çatan külli miqdarda vəsait dünyada geniş yayılmış təcrübə sayılır.

Bəzən bununla bağlı kriminal xronikalarda da xəbərlərlə rastlaşırıq. Həyatını neçə milyon dollara sığortalatdıran iş adamını məhz yaxınları qətlə yetirir. Təbii ki, sözsüz-söhbətsiz o milyonlara qonmaq üçün. Halbuki, bunun bizim bilmədiyimiz, amma dünya insanına məlum olan sərfəli, praqmatik tərəfləri də var. Necə ki, onlardan yararlansaq, ciddi gəlirlər əldə edə bilərik.

Son günlərin ən səs-küylü olaylarından olan Rövşən Lənkəranskinin qətlində də bu sual hallandı. Əcəba, həyatını sığorta etdirmişdimi? Məlum, bu cür şəxslər baş verə biləcək qətl və kriminal olaylara qarşı həyatlarını ciddi məbləğə sığorta etdirsələr, öləndən sonra yaxınlarına da böyük məbləğdə vəsait qalar. Amma onların keçirdiyi həyat tərzi, qəbul etdikləri prinsiplər bunu inkar edir.

### İnsan həyatını itirəndə, kritik xəstəliyə tutulanda və....

Həyat sığortası, sığortalanan şəxs həyatını itirərsə, kritik xəstəliyə tutularsa, əmək qabiliyyətini itirərsə sığorta şirkəti tərəfindən müqavilədə qeyd olunan pul vəsaitinin sığorta olanana verilməsini təmin edən bir mexanizmdir. Bu vəsaiti müştəri istəyindən asılı olaraq özünə, ailəsinə və ya xəstəliyinin müalicəsinə sərf edə bilər. Sadə dillə ümumiləşdirib desək, həyat sığortasını iki kateqoriyada qiymətləndirə bilərik:

### Yığım və investısıya xarakterli

### Arzu olunmayan hallarda özünüzün və ailənizin çətinliklərdən qorunması

Həyat sığortası əmək qabiliyyətinin itirilməsi, hansısa sağalmaz xəstəliyə tutulmaq, hər hansı səbəbdən ölüm kimi hadisələrin qarşısını almır. Amma, bu hadisələrin hansısa biri baş verdikdə onun yaratdığı fəsadların, törədə biləcəyi ağır nəticələrin, ailə ilə bağlı planların pozulmasının qarşısını almaqda kömək edir. Əmək qabiliyyətinin itirilməsi vaxtı ailənizin maddi vəziyyətinin pisləşməməyinə kömək edir. Uzaq olmağını arzuladığımız hansısa kritik xəstəliyə tutulduqda müalicəsinə kömək edir. Həyatın reallığı olan ölüm halında isə ailəmizlə bağlı planlarımızın yarımçıq qalmamasına, onların çətinlik çəkməməsinə köməklik edir.

Müştəri istənilən məbləğdə yığım vəsaitlərini bir neçə dəfə artıra bilər. Məhsulun mövcudluğu qanunvericilikdə həyat sığortası şirkətlərinə verilən güzəştlərin hesabına reallaşır. Bu güzəştlər sığorta şirkətini və müştərini bəzi vergilərdən azad edir və bunun sayəsində onların arasında bölünür.

Məsələn, əgər siz ayda 1000 AZN əmək haqqı alırsınızsa və ayda əmək haqqından 100 AZN yığım sığortası məhsuluna yönəldirsinizsə:

bu halda siz 36 aydan sonra 3600 AZN deyil 5600 AZN vəsait əldə etmiş olursunuz.

Həyatın yığım sığortası üzrə müqavilə 3 tərəfli bağlanır - sığortalanan şəxs, onun işə götürəni və sığorta şirkəti. Sığorta haqqı da işəgötürən şirkət tərəfindən işçinin maaşından tutulmaqla hər ay sığorta şirkətinə ödənilir.

Həyat sığortasının ən sərfəli cəhəti odur ki, işçinin əmək haqqından sığorta haqqı kimi sığorta şirkətinə ödənilən məbləğ gəlir vergisindən (14%) və Dövlət Sosial Müdafiə Fonduna ödənilən sosial sığorta haqqından (25%) azaddır. Bu məbləğlər də sığorta şirkətinə edilən ödənişlərin üzərinə əlavə olunur.

### 28 növdən biri məşhurdur - avtomobil sığortası

"Sığorta haqqında" Qanunda deyilir ki, sığorta müqaviləsi sığorta olunanla sığortaçı arasında sazişdir. Bu müqaviləyə görə, sığortaçı sığorta hadisəsi zamanı sığorta olunana və ya xeyrinə sığorta müqaviləsi bağlanmış digər şəxsə sığorta ödənişi verməyi, sığorta olunan isə müəyyənləşdirilmiş müddətlərdə sığorta haqqı ödəməyi öhdəsinə götürür.

Sığorta müqaviləsində tərəflərin razılaşmasına əsasən başqa şərtlər də qoyula bilər. Deməli, sığorta vətəndaşın xeyrinə olan aktdır. Sadəcə, Azərbaycanda sığorta bazarı yenicə formalaşdığından vətəndaşlar arasında sığortanın həqiqi izahı anlaşılmayıb. Əsasən əyalətdə sığorta işin qeyri-ciddi baxışlar var.

Onu da deyək ki, Azərbaycanda konkret obyektlər üzrə ixtisaslaşmış sığorta şirkətləri yoxdur. Sığorta şirkətlərinin məşğul olması üçün 28 növ fəaliyyət var. Ölkədəki 30-a yaxın sığorta şirkəti bu 28 növ fəaliyyətin hər biri ilə məşğul olur. Bu da vətəndaşların tələbatının zəif olduğunu göstərir. Normal ölkələrdə sığorta şirkətlərinin tərkibində bir neçə bank olur, yəni onlar sığorta pulu yığır. Bu banklar vasitəsilə uzunmüddətli, qısamüddətli kreditlər, ipotekalar verilir. Bizdə isə tərsinədir. Əvvəl banklar, bankdan sonra isə sığorta şirkəti yaradılır. Əslində sığorta şirkətlərində dövriyyə banklara nisbətən qat-qat çox olmalıdır.

Azərbaycanda sığortanın ən çox yayılan növü şəxsi avtomobillərin sığortalanmasıdır. Apardığımız araşdırma zamanı məlum oldu ki, xüsusi nəqliyyat vasitələrinin sığortasının səviyyəsi 2005-2006-cı illərdə aşağı olsa da sonradan yüksələn xətt üzrə inkişaf edib. Nəyə görə məhz avtomobil? Ekspertlər deyir ki, maşını kreditə verirlərsə, kredit verən bank mütləq sığorta tələb edir. Üstəgəl, əhali avtomobillərini tıxacların və maşınların sayının artması nəticəsində yarana biləcək qəza şəraitindən özü sığortalayır. Buna görə maşınların sığortalanması sayı həddən artıq çoxalıb. Amma digər sahələrdə sığorta işi zəifdir.

Ekspertlər onu da deyir ki, sığorta şirkətləri inamsızlıq yaradırsa və ya bəhanələrlə dəymiş ziyanı ödəməkdən imtina edirsə, onda "Sığorta haqqında" Qanuna müraciət etmək olar. Qanunvericilik sığortaçı tərəfindən dəfələrlə pozulduqda onun ləğv edilməsi barədə Arbitraj Məhkəməsində iddia qaldırmaq mümkündür.

### Dünyanın 10 fərqli sığortası bunlardır

Dünyada isə olduqca ilginc sığorta növləri mövcuddur. Qərargahı Amsterdamda yerləşən "Hullberry" Sığorta Şirkəti 10 müxtəlif, fərqli sığorta növü təklif edir.

Məsələn, əgər benzinin qiyməti 15%-dən çox artarsa, onda növbəti 1000 litr benzin üçün sığorta şirkəti əlavə xərcləri ödəmək öhdəliyi daşıyır. Sığortanın qiyməti illik 19,95 avrodur. Bunun Azərbaycan kimi benzin qiyməti ilə tez-tez oynanılan ölkədə tətbiq olunması arzuedilən olardı.

Digər ağlagəlməz sığorta növü: tutaq ki, siz evdən tələsik çıxdınız, açarlar evdə qaldı, qapı isə arxanızca bağlandı. Sığorta sizə günün və ya həftənin hansı hissəsindən asılı olmayaraq, 100 avroya qədər ödəniş həyata keçirəcək. Sığortanın qiyməti isə illik 18 avrodan başlayır.

Liftdə qalanlar da qazanırlar. Bu halda da "Hullberry" şirkəti liftdə itirdiyiniz vaxt üçün 75 avro təzminat ödəməyi vəd edir. Sığortanın qiyməti: illik 12 avrodan 28 avroyadək məbləğdədir.

Lotereyada bəxti gətirməməyin də sığortası var imiş. İldə 52 dəfə lotereya oynayan, lakin heç nə uda bilməyən - bəxti gətirməyən şəxs sığorta şirkətindən 2500 avro pul ala bilər. Sığorta hadisəsinin baş vermə ehtimalı 1/4900-dür.

Nəzərə alsaq ki, altı rəqəmli lotereyanın baş prizini udmaq şansı 1/14 milyona bərabərdir, o zaman bu ehtimal heç də pis deyil. Sığortanın qiyməti illik 12 avrodan 28 avroyadəkdir.

Əgər ölkədə yeni "quru" qanun, tutaq ki, içki içilməsini qadağan edən qanun qəbul olunarsa, sığorta olunan kompensasiya olaraq 500 avro alacaq. Sığortanın qiyməti illik 12 avrodan 28 avroyadəkdir.

Başqa planetlilər tərəfindən oğurlanma - bu da bir sığorta növü yaradır. Yəni əgər sığorta olunan şəxs öz iradəsi olmadan (zorla) başqa planetlilər tərəfindən Yer kürəsindən qaçırılarsa, sığorta ödənişi həyata keçirilir. Sığorta müqaviləsində belə qeyd olunur. Belə olan halda zərərçəkənə 5000 avro ödəniş verilir. Amma, o şərtlə ki, həkimdən və aviokosmik orqanlardan arayış təqdim olunsun. Sığortanın qiyməti illik 12 avrodan 28 avroyadəkdir.

Bax, indi yazacağımız sığorta növü tam azərbaycanlılara uyğundur. Bu sığorta növünün adı təqsirsiz halda həbsxanaya düşməkdir. Təqsiri olmadan dəmir barmaqlıqlar arxasına düşməkdən qorxanlar sığorta şirkəti ilə müqavilə bağlaya və belə hal baş verərsə, 500 avro sığorta ödənişi ala bilər. Sığortanın qiyməti: illik 12 avrodan 28 avroyadəkdir.

Xarici filmlərə mövzu olan sığorta növünə keçək. O toylarda keşişin, nikah məmurunun yanında adamdan "sən bu adamla (qadınla, kişi ilə) evlənmək istəyirsənmi" sualı verirlər ha. Qarşı tərəf də ani emosiyalar burulğanına düşüb, "yox" cavabı verir. Evlənəcəyi şəxsin "hə" cavabından əmin olmayanlar bu sığorta növünə müraciət edir. Nəticədə də əgər "yox" cavabı alırlarsa, şirkət onlara 100 avro ödəyir. Sığortanın qiyməti yenə də eynidir - illik 12 avrodan 28 avroyadək.

Gəlib çatdıq günümüz Azərbaycanı üçün real sığortaya. Şirkət təklif edir ki, özünüzə və ya dostlarınıza gizli kameraya çəkilməkdən qorunmaq üçün sığorta şəhadətnaməsi hədiyyə edəsiniz. Əgər belə bir vəziyyətə düşsəniz, zərərçəkən 1000 avroya qədər ödəniş ala bilər. Sığortanın qiyməti illik 12 avrodan 28 avroyadək.

Xəyanətə uğradığını öyrənən kişinin sığorta şirkətindən 500 avro ödəniş almaq hüququ var. Sığortanın qiyməti - illik 12 avrodan 28 avroyadək.

### Bizdəki şərtlər və qiymətlər...

Azərbaycanda fəaliyyət göstərən böyük sığorta şirkətlərinin həyat sığortası üçün lisenziyası var. Keçirdiyimiz sorğu zamanı öyrəndik ki, həyat sığortası etdirmək istəyənlər kateqoriya ilə sığortalanır. Belə ki, bu, sığortalının iş və statusu ilə əlaqəli bir prosesdir. Azərbaycan insanının orta aylıq əməkhaqqı 300 manat həddində olsa da (bu, standartlara görə, aşağı rəqəmdir), orta aylıq əmək haqqı alan hər bir vətəndaş çox az bir məbləğə öz həyatını sığorta etdirə bilər.

Hesablamalar zamanı öyrəndik ki, qulluqçu kateqoriyasında aylıq 300 manat əmək haqqı alan bir müəllim və ya bir həkim ildə 7 manat 20 qəpik ödəməklə öz həyatını sığorta etdirə bilər. Müqavilə əsasında həyata keçirilən sığorta prosesi bir illik nəzərdə tutulub. Sığortalı bir ildən sonra müqaviləsini yeniləyərək növbəti il üçün sığortalanmış olur.

Həyat sığortasının ən vacib detalı: əgər sığortalananın başına sığorta müddəti ərzində bədbəxt hadisə gələrsə, onda onun əmək haqqının 10 və ya 12 misli miqdarında sığorta haqqı onun ailəsinə ödənilir. Yeni sığorta şirkəti tərəfindən edilən ödənişin həcmi qanunvericiliyin qoyduğu qayda ilə hesablanır. Sığorta ödənişinin maksimal həddi işçinin bir illik əmək haqqı fondundan 10-12 dəfə çox ola bilər.

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 184 (6505) 22 avqust 2016




## Dünyanın ən qəşəng oğlanı odur?

**İnstagram və Twitter istifadəçiləri 12 yaşlı avstraliyalı Vilyam Franklin Milleri dünyanın ən yaraşıqlı oğlanı seçiblər. Bu barədə lenta.ru saytı "Daily Mail"ə istinadən xəbər verib. Öncə Vilyamın sosial şəbəkədəki hesabları internetin asiyalılar bölməsində populyar olub. Onun fotolarını yaponiyalı məktəbli qızlar paylaşıblar.**

Oğlan deyir ki, hər üç saniyədən bir 100-ə yaxın izləmə sorğusu alırmış. Məktəblinin sözlərinə görə, o və anası öncə düşünüb ki, akkauntu kimsə sındırıb. Amma daha sonra insanların şəkillərə yazdığı rəylər nəticəsində anlayıblar ki, bu, insanların real istəklərinə əsaslanır. O, hazırda Yaponiya və Çində olduqca populyardır. Yapon və çinli gənclər ona xarici görünüşü ilə bağlı xeyli kompliment deyir və öz ölkələrinə dəvət edirlər. Onun hazırda İnstagramda 152 min izləyicisi var. Vilyam 8 yaşından etibarən model olaraq çalışır və aktyorluq sahəsində ilk addımlarını atır. Bu günə qədər də bir neçə reklam filminə və Avstraliya istehsalı olan "Cek Ayriş" serialına çəkilib.

## Uşağı tərifləsəniz, stressə düşəcək

**İngilis, holland və amerikalı alimlərin apardıqları araşdırmalar nəticəsində məlum olub ki, uşaqları çox tərifləmək onlara yaxşı təsir etmir. Mütəxəssislərin sözlərinə görə, onlar 240 uşaq arasında sorğu keçiriblər. Uşaqlar valideynləri onları təriflədikcə məsuliyyətlərinin daha da artdığını və bunun onları stressə saldığını deyiblər. Məhz bu səbəbdən də pediatrlar uşaqları həddən artıq tərifləməyin doğru olmadığını və uşaqları sərbəst buraxmağın onlar üçün daha yaxşı olduğunu deyiblər.**

# Gəlinlik paltarını dəyişdilər, 25 il sonra xəbər tutdu

**Sinsinati ştatının sakini Şeril Kittel toyundan 25 il sonra gəlinlik paltarının dəyişdirildiyini öyrənib. 1987-ci ildə toyu olan Şeril toydan sonra gəlinlik paltarını kimyəvi təmizləməyə verib. Qutuda geri aldığı paltarının necə təmizlənməsinə isə baxmayıb.**



25 il sonra toy paltarına baxmaq istəyəndə isə məlum olub ki, orada başqasının 1960-cı illərin dəbi olan gəlinlik paltarı saxlanılır. Bundan başqa, fata qoyulmalı olan yerdə isə toxunma uşaq paltarı və ədyal qoyulub: "Bu, başqalarının xatirələridir. Doğrudur, mənə sahvən verilən gəlinlik paltarı da çox gözəldir, amma mənim deyil. Bu yanlışlığı edən kimyəvi təmizləmə yeri isə artıq bağlanıb".

# Hamilə olduğunu ərinə belə dedi

**Hamilə olduğunu ərinə bir sürprizlə demək istəyən 24 yaşında Brayn Dou bunun üçün unudulmaz bir təşkilatçılıq edib. Hamilə olduğunu öyrənən kimi bu gözəl xəbəri ərinə verməyib, belə bir özəl anı videokameranın yaddaşına köçürmək üçün plan fikirləşib. Ərinə deyib ki, bir yarışmada qalib gəlib və pulsuz fotosessiya çəkilişi udub. Əri ilə birlikdə fotoqraflarla bir parkda görüşüb. Cütlüyün əlinə qara bir taxta verən fotoqraf Samanta Boos onlardan çiyin-çiyinə dayanmalarını və əllərindəki taxtalara bir-birlərini ifadə edən üç söz yazmalarını istəyib.**

Sürprizdən xəbərsiz olan Braynın həyat yoldaşını ifadə edən üç söz qismində "Sevgi, sevimli, şirin" sözlərini yazarkən Brayn isə taxtaya "Ata olacaqsan" yazıb. Fotoqraf cütlüyə yazdıqlarını yekunlaşdırandan sonra bir-birlərinə tərəf dönmələrini istəyib. Braynın həyat yoldaşı taxtada yazılanları görüncə göz yaşlarını saxlaya bilməyib. Cütlüyün körpəsi fevral ayında doğulacaq.





## İnsan həyatı boyu 50 ton ərzaq yeyir

**Yemək və su istənilən insanın həyatında iki əvəzolunmaz şeydi. Alimlər müəyyənləşdirib ki, 70 il yaşayan insan 50 tondan çox ərzaq və 42 min litr maye qəbul edə bilir.**

50 ton ərzaq isə aşağıdakılardır: 2 ton müxtəlif ət, həmçinin 70 min kotlet; 7 ton çörək, o cümlədən 35 min bulka; 1 ton piy; 4 ton balıq delikatesi; 5 ton kartof; toyuq yumurtaları 5 000 ədədi; 500 kq duz. Bundan başqa insan təxminən 10 min şokolad yeyə bilər. Bunları bir-birinin üstünə qoysaq 50 mərtəbəli evin hündürlüyünə bərabər olacaq. Bundan başqa, insan həyatı boyu 75 min fincan çay içir ki, bu da 10 Ostankino teleqülləsi hündürlüyünə bərabərdir.




**QOÇ** - Dünəndən Ayın bürcünüzə girməsi fəaliyyət sahəsində uğurlarınıza mane olmayacaq. Amma yeni münasibət qurmaq, qlobal problemləri həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu deyil.

**BUĞA** - O qədər də əlverişli gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

**ƏKİZLƏR** - Əgər qəlbinizdə kiçicik bir iman işığı varsa, gün ərzində Allaha zidd hərəkətlər etməyin. Əksinə, Yaradandan tövbə və bağışlanma diləyin. Heç kimin qəlbinə dəyməyin. Saat 16-19 aralığı çox uğurludur.

**XƏRÇƏNG** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**ŞİR** - Bu gün bürcünüzün sonuncu hakim sutkasıdır. Çox məsuliyyətli gündür. Bu səbəbdən riskdən uzaq olun ki, cəhdləriniz boşa çıxmasın. Nahar ərəfəsində perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**QIZ** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**TƏRƏZİ** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**ƏQRƏB** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**OXATAN** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq, xüsusən də sevgidə. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**BALIQLAR** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadınlar yuxuda daha çox kabus görür və xəyanətə uğrayır



**Amerikada aparılan bir araşdırma nəticəsində qadınların kişilərlə müqayisədə daha çox kabus gördüyü və yuxularında xəyanətlə üzləşdikləri üzə çıxıb. 2 min kişi və qadın üzərində aparılan araşdırmalar nəticəsində məlum olub ki, kişilər öz yuxularında rahatladıcı və əyləncəli hadisələri görürlər. Qadınların yuxularında isə stress və basqı ön plandadır. Kişilər yuxularında əsrarəngiz gözəl bir qadınla qarşılaşdıqları hada qadınlar ya stress dolu məktəb günlərinə geri qayıdır, ya da partnyorlarının onlara xəyanət etdiklərini görürlər. Mütəxəssislər bildiriblər ki, bu vəziyyət kabusların qaygıdan qaynaqlanması və qadınların kişilərlə müqayisədə daha çox psixoloji problemlərinin olması ilə bağlıdır.**

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750